Dünya və axirət (işləri) barəsində. (Ya Rəsulum!) Səndən yetimlər haqqında sual edənlərə söylə: "Onlar üçün (onların malını qorumaq və güzəranlarını) yaxşılaşdırmaq xeyirlidir. Əgər onlarla birlikdə yaşayırsınızsa, onlar sizin qardaşlarınızdır". Allah islah (yaxşılıq) edənləri də, fəsad salanları da tanıyır. Əgər Allah istəsəydi, sizi, əlbəttə, əziyyətə salardı. Həqiqətən, Allah yenilməz qüvvət, hikmət sahibidir!

*(Qurani-Kərim, əl-Bəqərə, 220)*

## Gənclərimiz ekstremist və ayrı-seçkilik çağırışlarından qorunacaq

Azərbaycanda yüksək riskli qruplardan olan gənclərə sosial-psixoloji və hüquqi yardımın göstərilməsi üçün məsləhət və yönləndirmə sistemi formalaşdırılacaq. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nda əksini tapıb.Sənəddə müasir təbliğat və maarifləndirmə metodlarından istifadə etməklə, gəncləri müxtəlif dini təriqətlərin ekstremist və ayrı-seçkilik çağırışlarından qorumaq, cəzaçəkmə müəssisələrindən azad olmuş gənclərin sosial reabilitasiyası ilə bağlı kompleks tədbirlər görmək əsas məqsəd və vəzifələr sırasında yer alıb.


www.scwra.gov.az

# Cəmiyyət və Din

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 01 (282) / YANVAR 2015-ci il




Azərbaycanın multikulturalizm strategiyası böyük fərəh doğurur

səh. 6

"Tük axtaranlar" və ya Sizə nə lazımdır, xanım Kosman?

səh. 10-11

"The Hill" qəzeti: "Azərbaycan tolerantlıq və multikulturalizm ölkəsidir"

səh. 12



Mövludun tarixi

səh. 14




səh. 15

# Prezident İlham Əliyev: Tarixi, dini abidələrimiz, mədəniyyətimiz təkcə memarlıq abidələri deyil, eyni zamanda, tərbiyə vasitəsidir

*Prezident İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda iştirak edib*




Yanvarın 27-də Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunan sərgidə 2004-2014-cü illər üzrə ölkənin sosial-iqtisadi inkişafının əsas göstəriciləri, iqtisadiyyatın sənaye, kənd təsərrüfatı, sahibkarlığın inkişafının dəstəklənməsi, infrastruktur, təhsil, səhiyyə, mədəniyyət, idman, informasiya-kommunikasiya texnologiyaları, sosial inkişaf, turizm və ekologiya sahələrində əldə edilən uğurlardan bəhs olunur.

Sərgidə Heydər Əliyev Fondunun təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə həyata keçirdiyi layihələr barədə də geniş məlumat verilir. Nümayiş olunan foto, cədvəl və diaqramlardan aydın görünür ki, müvafiq dövrdə regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan proqramların icrası nəticəsində ölkə iqtisadiyyatının dinamik inkişafı, o cümlədən regionlarda irimiqyaslı layihələrin həyata keçirilməsi uğurla təmin edilib.

2004-2014-cü illərdə Naxçıvan Muxtar Respublikası da əsaslı inkişaf yolu keçib. Son 10 ildə muxtar respublikada ümumi daxili məhsulun həcmi 10,3 dəfə, sənaye məhsulunun ümumi həcmi 34,9 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 4,6 dəfə, əsas kapitala investisiyalar 11,5 dəfə, xarici ticarət dövriyyəsi 13,2 dəfə artıb. Bu dövrdə əhalinin gəlirləri 8,2 dəfə, orta aylıq əməkhaqqı isə 5,8 dəfə çoxalıb. Naxçıvanda təhsil, səhiyyə, mədəniyyət, infrastruktur və digər sahələrdə də əsaslı dəyişikliklər baş verib.

Dövlətimizin başçısı konfransda giriş nitqi söyləyib.

### Prezident İlham Əliyevin giriş nitqi:

- Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı üçüncü Dövlət Proqramı keçən il qəbul edilmişdir. Keçən il biz Heydər Əliyev Mərkəzinin bu salonunda ikinci Dövlət Proqramının yekunlarını müzakirə etmişdik və üçüncü proqramın qəbul olunması məsələsi o vaxt qoyulmuşdur. Bir il keçibdir və bir il ərzində görülən işlər haqqında bu gün məlumatlar veriləcək, eyni zamanda, bu il görüləcək işlər haqqında danışacağıq.

Bir il ərzində dünyada müxtəlif hadisələr baş vermişdir, müxtəlif proseslər getmişdir. Dünyada gərginlik artır, həm Yaxın Şərqdə, həm Avropada qanlı toqquşmalar baş verir, müharibələr davam edir. Bir sözlə, dünyada siyasi böhran davam edir, maliyyə və iqtisadi böhranın yeni mərhələsi başlamışdır.

Azərbaycanda isə keçən il ərzində bütün işlər müsbət istiqamətdə getmişdir. Azərbaycan inamla irəliyə gedir, dayanıqlı inkişaf təmin edilmişdir. Azərbaycan dünyada sabitlik adasıdır, inkişaf məkanıdır. Çünki Azərbaycanda xalqla iqtidar arasında birlik var, bizim bütün təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir. Bizim atılan bütün addımlarımız Azərbaycanın inkişafına xidmət edir.

səh. 2

# Prezident İlham Əliyev: Tarixi, dini abidələrimiz, mədəniyyətimiz təkcə memarlıq abidələri deyil, eyni zamanda, tərbiyə vasitəsidir

*(əvvəli 1-ci səhifədə)*



Ölkəmizdə ictimai, siyasi vəziyyət sabitdir, iqtisadiyyata böyük həcmdə investisiyalar qoyulur və iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atılır. Yəni, bu gün Azərbaycan nəinki regionda, dünya miqyasında seçilən ölkələrdən biridir və dünyada bizə olan maraq artır. Bu yaxınlarda Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirdiyim çoxsaylı görüşlər, orada səslənən fikirlər bunu bir daha göstərir və Azərbaycanın inkişaf modelini yüksək qiymətləndirirlər.

Yəni, budur bizim bugünkü reallıqlarımız. Dünyada çağırışların sayının artmasına baxmayaraq, Azərbaycanın inamlı, uğurlu inkişafı davam edəcək. Yaxın Şərqdə siyasi və hərbi böhran yaşanır, Avropada vəziyyət gərginləşir, Ukraynadakı vəziyyət daha da kəskinləşir, neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür. Yəni, son bir il ərzində bütün bu və digər amillər əslində mənfi tərəfə gedən amillərdir. Yəni, mən bu amillərin arasında bir dənə də müsbət amil görmürəm. Amma buna baxmayaraq, Azərbaycan inkişaf edir, insanların rifah halı yaxşılaşır. Regionlar sürətlə inkişaf edir. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir.

2004-cü ildə birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Yadımdadır, 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər xalq mənə etimad göstərərsə, ilk növbədə, regionların inkişafı ilə məşğul olacağam və proqram qəbul ediləcəkdir. Belə də oldu, 2004-cü ilin fevralında regionların sosial-iqtisadi inkişafı birinci Dövlət Proqramı qəbul olunmuşdur və 5 il ərzində uğurla icra edilmişdir. O vaxt bəyan etmişdim ki, 600 min iş yeri yaradılacaqdır. Ancaq ondan daha çox iş yeri yaradılmışdır. Baxmayaraq ki, o vaxt bizim böyük maliyyə resurslarımız yox idi, valyuta ehtiyatlarımız çox məhdud idi, iqtisadiyyat çoxşaxəli deyildi və neftdən gələn gəlirlər hələ ki, qabaqda idi. Buna baxmayaraq, düşünülmüş siyasət nəticəsində və xalqın böyük dəstəyi ilə biz birinci proqramı uğurla başa vurduq və ikinci proqram qəbul edildi. Əlbəttə ki, ikinci proqramı qəbul edərkən artıq Azərbaycan dəyişmişdi. 2009-cu ildə Azərbaycan artıq ayaqda möhkəm dayanmışdı. Artıq bizim gəlirlərimiz gəlməyə başlamışdı. Ona görə hələ 2009-cu ildə ikinci proqramın icrası ilə bağlı demişdim ki, mən heç bir problem görmürəm. O proqram da artıqlaması ilə icra edilmişdir.

Biz üçüncü proqramı da 2018-ci ilə qədər uğurla icra etməliyik. Baxmayaraq, bir daha demək istəyirəm ki, ətrafda gedən xoşagəlməz proseslər mənzərəni tam dəyişmişdir. İstisna edilmir ki, gələcək illərdə bölgədə gərginlik daha da artacaq. Çünki bu vaxta qədər görmədiyimiz təhlükələr meydana çıxır. İstisna olunmur ki, böhranla, iqtisadi, maliyyə böhranı ilə bağlı bizi qarşıda daha da böyük sınaqlar gözləyə bilər. Ancaq biz bütün bu çağırışlara hazır olmalıyıq və hazırıq. Çünki vaxtında bütün tədbirləri görmüşük, heç vaxt populist bəyanatlarla çıxış etməmişik, heç vaxt xaricdə yerləşən hansısa quruma xoşa gəlmək üçün addımlar atmamışıq. Ancaq praqmatik siyasət aparmışıq, Azərbaycan xalqının maraqlarını qorumuşuq və ölkəmizi inamla idarə etmişik. Ona görə əminəm ki, üçüncü proqramın icrası ilə də bağlı heç bir problem olmamalıdır. Proqramı icra etmək üçün bütün cəmiyyət səfərbər olmalıdır və əminəm ki, biz buna nail olacağıq.

Bu gün bu salonda bütün rayonların, şəhərlərin icra hakimiyyəti başçıları, tanınmış biznes strukturlarının rəhbərləri əyləşiblər. Yəni, bu proqramın icrası məsələsi böyük dərəcədə sizin fəaliyyətinizdən asılı olacaq. Əlbəttə ki, dövlət öz siyasətini aparır, bu il və gələn illərdə investisiya proqramı icra ediləcək. Bizim düşünülmüş siyasət imkan verir ki, bütün məsələlər həll olunsun. Sahibkarlara kömək davam etdiriləcək, quruculuq-abadlıq, infrastruktur layihələrinin icrası təmin ediləcək, ancaq yerlərdə dövlət qurumlarının və biznes strukturlarının nümayəndələri birgə çalışmalıdırlar ki, işlər daha da sürətlə getsin.

Əgər biz 2004-cü ilə nəzər salsaq görərik ki, son 11 il ərzində Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə olmuşdur. Bütün göstəricilər bunu təsdiq edir. Sadəcə olaraq bəzi rəqəmləri qeyd etmək istərdim. 2004-cü ildən bu günə qədər ümumi daxili məhsulumuz 3,4 dəfə artmışdır. Bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,7 dəfə artmışdır. On bir il ərzində ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulmuşdur. 2004-cü ildə bizim valyuta ehtiyatlarımız 1,8 milyard dollar idisə, bu gün 50 milyard dollardan çoxdur. Görün, biz nə qədər ehtiyat yığmışıq. Baxmayaraq ki, bizim son illərdəki investisiya proqramlarımız çox genişmiqyaslıdır. Ancaq biz valyuta ehtiyatlarımızı ildən-ilə artırmışıq ki, ilk növbədə bu, bizə böyük inam verir, eyni zamanda, kredit reytinqlərimizi artırır və bununla bərabər bu, bir sığortadır, istənilən xoşagəlməz hadisəyə qarşı ciddi sığortadır. Bu gün bizim valyuta ehtiyatlarımız xidmət edir. Bu, sadəcə olaraq mücərrəd anlayış deyil. Hər bir insan bunu öz gündəlik həyatında hiss edir. Çünki manatın məzənnəsi sabit olaraq qalır. Baxmayaraq ki, neftin qiyməti düşüb, böyük valyuta ehtiyatlarımız, düşünülmüş makroiqtisadi siyasət imkan verir ki, Azərbaycan vətəndaşları bu böhranı hiss etməsinlər.

Bu illər ərzində 1 milyon 360 min yeni iş yeri yaradılmışdır. Onlardan 1 milyonu daimi iş yeridir. Bu da daimi proses olmalıdır. Mən bu barədə dəfələrlə demişəm. Çünki əhalinin sayının artması tələb edir ki, iş yerlərinin açılması daimi proses olsun. İşsizliklə bağlı aparılan tədbirlər nəticəsində işsizlik 5 faizə düşmüşdür, yoxsulluq da 5 faiz səviyyəsindədir. Dünyanın aparıcı kredit reytinq agentlikləri Azərbaycanın suveren reytinqlərini artırmışlar. Davos Dünya İqtisadi Forumu ölkəmizi iqtisadi sahədə rəqabətqabiliyyətliliyinə görə 38-ci yerə layiq görmüşdür. Bax, budur əsas makroiqtisadi göstəricilərimiz. İnflyasiya da çox aşağı səviyyədədir, manat da ildən-ilə öz dəyərini artırır.

Ona görə bu statistik rəqəmlərə baxdıqda hər kəs görə bilər ki, biz nə qədər böyük yol keçmişik. Deyə bilərəm ki, heç kim bizə kömək etməmişdir. İndi dünyanın hətta inkişaf etmiş ölkələri xarici yardımdan bəhrələnmək istəyirlər. Xarici yardım olmadan o iqtisadiyyatlar çökür, defolt vəziyyətinə düşür. Qapı-qapı gəzirlər, yalvarırlar ki, onlara vəsait ayırsınlar. İndi yəqin ki, özləri ni bir növ o qədər də rahat hiss etmirlər.

Amma Azərbaycan bütün nailiyyətlərə təkbaşına çatıbdır. Bəzi hallarda əsassız təzyiqlərə də məruz qalmışıq. Bəzi hallarda bizə qarşı kampaniyalar da aparılıbdır və aparılır. Bəlkə bəzilərinin xoşuna gəlmir ki, Azərbaycan bu qədər müstəqil ölkədir, Azərbaycanda hər şey yaxşıdır, Azərbaycan çiçəklənir, gündən-günə inkişaf edir. Bu, bəzilərinin, necə deyərlər, gözünü deşir. Bizi bunu da bilirik.

Əlbəttə, iqtisadi güc imkan verir ki, siyasi səhnədə də heç kimdən çəkinmədən sözümüzü deyək, milli maraqlarımızı qoruyaq, qoruyacağıq və qoruyuruq. Ona görə iqtisadi güc bizə, bax, bu imkanları yaradır. Ona görə xatırlayıram, hələ 2003-cü ildə demişdim ki, əgər biz iqtisadi müstəqilliyə nail olmasaq, bizim siyasi müstəqilliyimiz də yarımçıq olacaq. Bu gün biz ətrafdakı ölkələrin vəziyyətini görürük. Baxın, dilənçi Ermənistana nəzər yetirin. Ermənistan nəinki müstəmləkə deyil, hətta o, bəlkə heç nökər adına da layiq deyil. Milli ləyaqət kriminal xunta tərəfindən tapdalanır və son hadisələr bunu bir daha göstərir. Görün, nə qədər bunlar aciz durumdadırlar ki, hətta haqlı tələbləri də irəli sürə bilmirlər. Bu ölkə artıq sübut edib ki, müstəqil ölkə kimi yaşaya bilmir. Müstəmləkə kimi yaşaya bilər. O qədər xalqlar var ki, onların müstəqilliyi yoxdur. Əgər öz çirkin siyasətindən əl çəkməsə, onlardan biri də Ermənistan olacaq.

Məhz iqtisadi güc bizə bu imkanları yaratdı və bu gün biz müstəqilik. İqtisadi və siyasi cəhətdən heç kimdən asılı deyilik. Heç kim bizimlə diktat dili ilə danışa bilməz. Bəziləri bunu istəyir, ancaq alınmır və alınmayacaq. Biz öz sözümüzü təmkinlə, çox soyuqqanlı deyirik və heç kimin qabağında başıaşağı deyilik, ölkəmizi ləyaqətlə idarə edirik.

Ona görə iqtisadi amil, bax, bu imkanları yaradır. Eyni zamanda, ciddi iqtisadi islahatlar ciddi sosial siyasətlə də tamamlanmalıdır. Bu olmasa, cəmiyyətdə islahatlara o qədər də böyük dəstək olmayacaq. Ona görə biz sosial sahəni də prioritet kimi götürmüşük. Yaxşı başa düşürdük, sosial sahə ancaq o vaxt inkişaf edə bilər ki, güclü iqtisadiyyat olsun. Yoxsa, gəl xaricdən alınan kreditlər hesabına sosial sahəni inkişaf etdir. Biz defolta düşən ölkələrin vəziyyətinə düşərdik. Burada rəhbərliyin məsuliyyətli davranışı da qeyd edilməlidir. Bəzi ölkələr ki, indi xarici yardımsız yaşaya bilmirlər, onların rəhbərliyi hakimiyyətə gəlmək naminə çoxlu vədlər vermişlər - maaşları on dəfə qaldıracağıq, pensiya yaşını aşağı salacağıq və s. İnsanlar da onlara inanıb, onlara səs verib. Onlar da hakimiyyətə gələndən sonra gərək o sözləri yerinə yetirərdilər. Bunun üçün resurs yox idi. Ona görə nə etdilər? Getdilər xarici bazarlardan borc aldılar, özlərini asılı vəziyyətə saldılar. Ondan sonra borcun üstünə borc gəldi. Bir borcu qaytarır, o biri borcu götürür və beləliklə, piramida yaranır. Piramidanı təkcə dələduz şirkətlər yaratmır. Bəzi hallarda hökumətlər də yaradır. Bir gün bu piramida dağılmış və həmin ölkələr çox ağır vəziyyətə düşmüşlər. Ona görə siyasi məsuliyyət də çox böyük əhəmiyyət daşıyır.

Sosial sahəyə gəldikdə, sosial islahatların təməlində güclü iqtisadiyyatımız dayanır. Mən bu sahədə də bəzi rəqəmləri qeyd etmək istərdim. 2004-cü ildə Azərbaycanda orta aylıq əməkhaqqı 100 dollar idisə, hazırda bu, 565 dollardır. Orta aylıq pensiya 24 dollar idi, hazırda 221 dollardır. Azərbaycanda sosial infrastruktur layihələri son on bir ildə uğurla icra edilmişdir. 2900 məktəb binası, 560 tibb ocağı tikilmiş və ya təmir edilmişdir. Təkcə regionlarda 41 olimpiya idman mərkəzi və 30 gənclər mərkəzi yaradılmışdır. Bax, bu, sosial sahəyə, sosial infrastruktura qoyulan vəsaitin və ayrılan diqqətin təzahürüdür.

Bu illər ərzində sosial cəhətdən ən ağır vəziyyətdə olan soydaşlarımıza - məcburi köçkünlərə də biz daim qayğı ilə yanaşmışıq. Son on bir il ərzində 84 qəsəbə yaradılmışdır. Hazırda, 210 min köçkün yeni, gözəl evlərə, mənzillərə köçürülmüşdür. Bu məqsədlər üçün 2 milyard manat, yəni, 2,6 milyard dollar vəsait ayrıl-

⇨ 3



# Prezident İlham Əliyev: Tarixi, dini abidələrimiz, mədəniyyətimiz təkcə memarlıq abidələri deyil, eyni zamanda, tərbiyə vasitəsidir

2 ⇦ mışdır. On bir il ərzində 210 min insanı yerləşdirmək asan məsələ deyil. Bu, böyük bir şəhər boyda qəsəbələrdir. Bunu da biz edirik və edəcəyik. Hələ ki, ağır vəziyyətdə yaşayan köçkünlərimiz var. Bu il də onların problemlərinin həlli üçün həm dövlət büdcəsində, həm Dövlət Neft Fondunda kifayət qədər böyük vəsait nəzərdə tutulur.

Biz bu illər ərzində bütün əsas tarixi, mədəni, dini abidələrimizi əsaslı şəkildə bərpa etmişik və yenilərini tikmişik. Teatrlar, muzeylər - bu sahəyə də nəinki Bakıda, hər bir yerdə, bütün bölgələrdə böyük diqqət göstərilir. Çünki bu, bizim tariximizdir, mədəniyyətimizdir. Biz bunu gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin. Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır. Çünki bu gün qloballaşma prosesi gedir. Düzdür, son vaxtlar bu "qloballaşma" sözü daha az çəkilir. Ancaq proses gedir. Sadəcə olaraq bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər. Budur bunun təməlində dayanan əsas məqsəd. Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Ancaq, eyni zamanda, açıq-aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur. Yaşlı nəslin borcudur ki, bax, bu ənənələri yaşatsınlar və gəncləri milli ruhda böyütsünlər. Ona görə bizim tarixi, dini abidələrimiz, mədəniyyətimiz sadəcə olaraq, memarlıq abidələri deyil. Bu, eyni zamanda, tərbiyə vasitəsidir. Bax, Azərbaycan belə inkişaf etməlidir. Bu gün Azərbaycan müasir, inkişaf edən ancaq öz köklərinə sıx bağlı olan dövlət və cəmiyyətdir. Həmişə də belə olmalıdır. Nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq. Ancaq bu, həmişə belə olmalıdır. Ölkəmizin müstəqil həyatı üçün bu, əsas şərtdir.

Bu illər ərzində infrastruktur layihələrinə böyük diqqət göstərilmişdir və görülən işlər göz qabağındadır. Düzdür, bəzi hallarda bu görülən işlər unudulur, bəzilərinə elə gəlir ki, həmişə belə olubdur. Ancaq indi bəzən o köhnə görüntüləri televiziya ilə göstərəndə hər kəs yada salır ki, əvvəlki vəziyyət necə idi. Son illərdə həm Bakıda, həm bütün bölgələrdə infrastruktur layihələrinin icrası prioritet xarakter daşıyırdı. Çünki bu olmasa, heç bir regional inkişaf proqramı icra edilə bilməz. Bu, necə icra edilsin, o müəssisə necə yaradılsın ki, o bölgədə, rayonda elektrik enerjisi, yol yoxdur?

Ona görə, bax, ilk növbədə, infrastruktur layihələri, - onu da mən 2003-cü ildə demişəm, - elektrik təminatı və yollar olmalıdır. Ondan sonra prioritet olaraq qazlaşdırma, içməli su, meliorasiya. Biz, bax, bu ardıcıllıqla da gedirik. Ona görə ilk növbədə, elektrik enerjisi qurğularının yaradılmasına böyük vəsait ayrıldı. Son 11 il ərzində 23 elektrik stansiyası tikilmişdir ki, onların gücü 2400 meqavatdır. Müqayisə üçün deyə bilərəm ki, ölkəmizin ümumi enerji potensialı 6300 meqavatdır. 2400 meqavat son 11 ildə yaradılmışdır. Əgər yaranmasaydı, bu gün ölkəmizin üçdəbir hissəsi işıqsız qalacaqdı, heç bir inkişafdan söhbət gedə bilməzdi, heç bir müəssisə yaradılmazdı. Müəssisələrə gəldikdə, son 11 ildə 64 min müəssisə yaradılmışdır. Ona görə elektrik enerjisi ilə təchizat təmin edildi.

Bütün şəhərlərdə qazlaşdırma yüz faiz səviyyəsindədir. Bu da tarixi nailiyyətdir. Heç vaxt belə olmamışdır. Hətta sovet dövründə bəzi rayonlarda ümumiyyətlə təbii qaz çəkilişi aparılmamışdır. İndi bütün şəhərlərimizdə hər bir evdə yüz faiz təbii qaz var. Kəndlərdə də bu proses gedir. Hər rübdə bir dəfə mənə məlumat verilir. Hansı kəndlərdə qazlaşdırma işləri aparılıb. Biz böyük işlər görmüşük və qazlaşdırma Azərbaycanda minimum 90-95 faiz olmalıdır. Biz proqramın sonunda - 2018-ci ildə bu məqsədə də çatacağıq.

Son 11 il ərzində 10 min kilometr yol çəkilmişdir. Magistral yollar, kənd yolları, 340 körpü və tunel tikilmişdir. Bakı-Tbilisi-Qars kimi beynəlxalq strateji əhəmiyyət daşıyan layihə Azərbaycanın təşəbbüsü ilə başlamışdır, indi tikintisi başa çatır. Bölgələrdə 6 aeroport tikilmişdir, onlardan 4-ü beynəlxalq aeroportdur. Heydər Əliyev beynəlxalq aeroportunun yeni terminal binası tikilmişdir. İndi bölgələrdən beynəlxalq uçuşlar təşkil edilir. Bu aeroportların bəziləri yenidən quruldu, bəziləri heç yox idi, tikilmişdir. Bu işə başlayanda bəziləri hesab edirdilər ki, buna - əlavə vəsait xərclənməsinə ehtiyac yoxdur. Amma görün indi nə qədər insan cənub, şimal-qərb bölgələrindən müxtəlif ölkələrə rahat gedir, daha Bakıya gəlməyə ehtiyac yoxdur.

Bu infrastruktur layihələrinin arasında əlbəttə, içməli su layihələri də prioritet xarakter daşıyır və son illər ərzində bu sahəyə daha da böyük diqqət göstərilir. Bizim bütün şəhərlərimizdə Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su 24 saat təmin ediləcək. Artıq bir neçə şəhərdə bu layihələr başa çatıb. Mən də hər bir layihənin başa çatması tədbirlərində şəxsən iştirak edirəm və yerlərdən gələn məlumatlar da məni çox sevindirir. Bu da tarixi hadisədir. Çünki Azərbaycanın daxili su mənbələri məhduddur. Bizim əsas mənbələrimiz xaricdə formalaşan çaylardır. Ona görə bu çayların sularından səmərəli şəkildə istifadə etmək, orada təmizləyici qurğuların tikintisi, eyni zamanda, daxili mənbələrin aşkarlanması prosesi gedirdi. Oğuz-Qəbələ-Bakı su kəməri tikilmişdir. Bu da simvolik xarakter daşıyır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin gəlirlərindən əldə edilmiş vəsait su kəmərinin tikintisinə qoyulmuşdur. Bax, bizim siyasətimiz bundan ibarətdir. Hər kəs yaxşı bilir ki, o sahəyə qoyulan vəsait heç vaxt qayıtmayacaq. Yəni, onlar sırf sosial xarakter daşıyan layihələrdir. Əgər elektriklə, yolların tikintisi ilə bağlı görülən müxtəlif işlər nəticəsində o vəsait uzun müddətdən sonra qayıdacaqsa, su təsərrüfatına qoyulan vəsait qayıtmayacaq. Su təsərrüfatına yüz milyonlarla, milyardlarla vəsait qoymuşuq. İndi Bakının su ilə təminatı 78 faizə çatmışdır, 2004-cü ildə 29 faiz idi. Yəni, şəhərin 24 saat su ilə təchizatı nəzərdə tutulur. Ölkə üzrə 60 faizdən çoxdur, amma 11 il bundan əvvəl bəlkə 10-15 faiz idi.

İnfrastruktur layihələrinin arasında meliorasiya layihələri də böyük önəm daşıyır. Biz bu layihələrin icrasını təmin etmişik. İki nəhəng meqalayihəni icra etmişik - Şəmkirçay və Taxtakörpü su anbarları, kanallar, elektrik stansiyaları. Bu da Azərbaycana bundan sonra xidmət edəcək. Yəni, onilliklər, yüzilliklər bundan sonra bu anbarlar, çəkilən bu kanallar kənd təsərrüfatının inkişafına xidmət edəcək. Eyni zamanda, suların idarə edilməsi məsələlərinin həllində də bu layihələrin böyük əhəmiyyəti var. Bu da böyük vəsait tələb edən layihələrdir. Ancaq biz bunu etmişik. Bir daha demək istəyirəm ki, infrastruktura, real sektora vəsait qoyulmalıdır. Eyni zamanda, qeyd etdiyim kimi, ehtiyatlar da yığılmalıdır. Bax, biz belə etmişik. Həm ehtiyatlarımızı artırmışıq, həm də investisiya qoymuşuq. Vaxtında real sektora, infrastruktura investisiya qoymayan ölkələr bu gün peşman olurlar. Onlar bu işə indi başlayırlar, amma artıq gecdir. İndi neftin qiyməti düşəndən sonra böyük investisiya qoymaq o qədər də asan məsələ deyil. Biz hər şeyi vaxtında etməli idik və etmişik. Ona görə deyəndə ki, bu gün Azərbaycan modeli var, biz səhv etmirik. Bu model var və bu model başqa tərəflər üçün də maraq doğurur. Mən hələ enerji layihələrini qeyd etmirəm. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, "Şahdəniz", TANAP, TAP, "Cənub" qaz dəhlizi - bu layihələr regionun, Avropanın enerji xəritəsini dəyişir. Bunların hər biri nadir tarixi layihədir. Bu layihələr son 9 il ərzində icra edilib. Bakı-Tbilisi-Ceyhan 2006-cı ildə istifadəyə verilmişdir, dəhliz yaradılmışdır. O dəhliz indi xidmət göstərir, yeni layihələr ortaya çıxır. Yenə də Azərbaycan liderlik keyfiyyətlərini ortaya qoyur. Əgər biz liderliyi göstərməsəydik, heç vaxt "Cənub" qaz dəhlizi icra edilməyəcəkdi. Mən vaxtilə şəxsən Nabukko layihəsinin müzakirəsi ilə bağlı azı 10 beynəlxalq tədbirdə iştirak etmişəm. Yəni, orada müzakirədən başqa heç nə yox idi. Bəyanatlar, çıxışlar, qətnamələrin qəbul edilməsi, vəssalam. Ondan sonra hamı dağılır gedir, iş də qalır kənarda. Mən minimum on tədbirdə iştirak etmişəm. Hər dəfə də demişəm ki, burada liderlik olmalıdır. Bu layihəni necə icra etmək lazımdır? Bunun əsas elementləri nədən ibarətdir? Bu o qədər də çətin məsələ deyil. Amma elə mən deyirdim, mən eşidirdim. Daha sonra gördük ki, artıq bu layihə yerində sayır. Yenə də təşəbbüs göstərmişik, TANAP layihəsini təklif etmişik. Adı da biz qoymuşuq, təşəbbüskarı da biz olmuşuq. 2012-ci ildə Türkiyə ilə bu layihəni imzaladıq. Ondan sonra artıq "Cənub" qaz dəhlizi üçün yol açıldı. Bunu etməsə idik nə olacaqdı?! Elə belə də qalacaqdı. Ya da ki, Bakı-Tbilisi-Qars. Bu məsələ on il bundan əvvəl müzakirə olunurdu və hələ müzakirə kimi gedirdi. Əgər təşəbbüs göstərməsəydik, real təklifi, maliyyə resurslarını ortaya qoymasaydıq, elə indi də danışacaqdıq. Nazirlər indi də gedib orada-burada konfranslar keçirəcəkdilər. Biz real işlərlə məşğuluq. Real işlər həyatda öz əksini tapır. Ona görə bu gün Azərbaycan modeli var. Ona görə ki, biz boşboğazlıqla yox, real işlərlə məşğuluq, xalqa xidmət edirik və edəcəyik.

* * *

**Daha sonra iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri Heydər Əsədov, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə və "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov çıxış etmişlər.**

## Sonda Azərbaycan Prezidenti İlham Əliyev yekun nitq söyləmişdir:

- Bu il görüləcək işlərlə bağlı müvafiq göstərişlər verilmişdir. Dövlət İnvestisiya Proqramı qəbul edilmişdir. Kifayət qədər geniş həcmli proqramdır. Əminəm ki, proqram icra ediləcək və beləliklə, 2015-ci il də Azərbaycanda uğurlu il kimi tarixdə qalacaq. Bütün planlarımızı həyata keçirmək üçün ilk növbədə, ölkədə makroiqtisadi vəziyyət sabit olmalıdır. Bu istiqamətdə böyük işlər aparılmışdır. Uzun illər makroiqtisadi vəziyyət diqqət mərkəzindədir. Bizim göstəricilərimiz də çox müsbətdir. Keçən il inflyasiya cəmi 1,4 faiz olmuş, iqtisadiyyat təxminən 3 faiz, qeyri-neft sektorumuz isə 7 faiz artmışdır.

Qeyd etdiyim kimi, manatın məzənnəsi sabitdir. Dünyada neftin qiymətinin düşməsi ilə bağlı manatın məzənnəsinə heç bir mənfi təsir olmamışdır. Əksinə, manat daha da güclənir. Hesab edirəm ki, biz bu məsələyə baxmalıyıq. Çünki o vaxt biz pul islahatını apararkən bir manat bir dollara bərabər idi. Ondan sonra manatın qiyməti qalxdıqca 1 manat 1,3 dollar olmuşdur. Bir növ manat avroya bağlı idi. Bir manat bir avro. İndi isə bir manat bir avrodan daha da qiymətlidir və bahalıdır. Əlbəttə ki, sosial məsələlərin həlli üçün bu, müsbət amildir. Ancaq biz bütün məsələlərə kompleks şəkildə yanaşmalıyıq. İqtisadiyyat, ixrac potensialımız üçün bu, o qədər də müsbət hal deyil. Ona görə hesab edirəm ki, manatın bundan sonra da avroya qarşı bahalaşması müsbət hal deyil. Hesab edirəm ki, bir manat bir avro səviyyəsində qalarsa, makroiqtisadi vəziyyət təmin ediləcək. Eyni zamanda, bu, insanların gündəlik həyatına ancaq müsbət təsir göstərəcək. Eyni zamanda, bizim ixracımız üçün heç bir problem yaranmamalıdır. Çünki Azərbaycan iqtisadiyyatı bundan sonra ixracyönümlü iqtisadiyyat kimi inkişaf etməlidir. Bir qədər sonra mən bu barədə öz fikirlərimi daha da geniş şəkildə deyəcəyəm. Ona görə ixracın inkişafı, təşviqi indi gündəlikdə duran məsələlərdir. Manatın ⇨ 4




qədər böyük nizamnamə kapitalı var. Bizim banklarımızın bir neçəsi artıq xarici bazarlara çıxır, xaricə investisiya qoyur. Mən prinsip etibarı ilə buna etiraz etmirəm. Ancaq hesab edirəm ki, ilk növbədə, o bankların ki, böyük resursları var, ölkə iqtisadiyyatına vəsait ayırsınlar. Mən bir dəfə bu barədə demişəm, bir daha demək istəyirəm ki, üstünlük istehlak kreditlərinə yox, real sektora verilməlidir. Bank sektorunun əsas fəaliyyəti yeni müəssisələrin yaradılmasına, iş yerlərinin açılmasına yönəldilməlidir. Çünki Azərbaycan dövləti bank sektorunun formalaşmasında çox böyük rol oynamışdır. Azərbaycan dövləti və hökuməti həmişə bank sektoruna dəstək olmuşdur, eyni zamanda, onlara maliyyə resursları da verir, təmin edir, onlar üçün qazanc mənbəyi yaradır. Yəni, bank sektoru bunu düzgün qiymətləndirməlidir və dövlətə minnətdar olmalıdır ki, bunlara bu qədər qayğı göstərir. Dövlət də, öz növbəsində, indi onlardan daha da fəal iş gözləyir. Hesab edirəm ki, ən azı ildə iki dəfə bu barədə məlumat verilməlidir.

# Prezident İlham Əliyev: Tarixi, dini abidələrimiz, mədəniyyətimiz təkcə memarlıq abidələri deyil, eyni zamanda, tərbiyə vasitəsidir

3 ⇦ məzənnəsi isə burada önəmli rol oynayır. Ona görə hesab edirəm, müvafiq qurumlar, hökumət, Mərkəzi Bank bu məsələlərə diqqətlə yanaşmalıdırlar ki, manat həddindən artıq bahalaşmasın.

Maliyyə resurslarımız kifayət qədər böyükdür. Xarici borc ümumi daxili məhsulun cəmi 8 faizini təşkil edir. Bu, dünya miqyasında ən gözəl göstəricilərdən biridir. Bu göstəriciyə görə bəlkə də biz dünyada birinci 10 ölkənin arasındayıq. Bütün işləri daxili resurslar hesabına görmüşük. Bax, bu göstərici onu əyani şəkildə təsdiq edir. Biz borclanmamışıq, lazım olan borcları götürməmişik. Halbuki götürə bilərdik. Hazırda Azərbaycanın kredit reytinqi, makroiqtisadi vəziyyəti, valyuta ehtiyatları o qədər müsbət mənzərə yaradır ki, biz xarici bazarlardan istənilən məbləğdə - 10 milyard, 20 milyard, 30 milyard dollar vəsait götürə bilərik, ancaq götürmürük. Çünki bayaq qeyd etdiyim kimi, bu məsələyə məsuliyyətlə yanaşırıq. Xarici borc daim aşağı səviyyədə olmalıdır. Biz əslində bu borcu bir gündə də ödəyə bilərik. Çünki xarici borcumuz valyuta ehtiyatlarımıza nisbətdə təxminən 10 faizdən bir qədər çox rəqəm təşkil edir. Ona görə xarici borc aşağı səviyyədədir. Bu, müsbət haldır. Müsbət hal kimi də qalmalıdır. Bu il də bizim büdcəmizdə xarici borcun qaytarılması üçün vəsait nəzərdə tutulur.

Bununla bərabər, qeyd etməliyəm ki, neftin qiymətinin düşməsi istər-istəməz bizim gəlirlərimizə təsir göstərir. Biz daha əvvəlki illərdə olduğu kimi, valyuta ehtiyatlarımızı artıra bilməyəcəyik. Bu, reallıqdır, bunu hamı bilməlidir. Belə olan halda əlbəttə ki, israfçılığa yol verilməməlidir. Əgər əvvəlki illərdə biz bəzi hallarda o qədər də böyük prioritet təşkil etməyən layihələri də investisiya proqramına daxil edirdiksə, artıq o dövr bitdi. İnvestisiya proqramına ancaq prioritet məsələlər salınır. Eyni zamanda, ciddi nəzarət aparılmalıdır. Həm dövlət strukturları, həm dövlət şirkətləri artıq xərclərə yol verməməlidirlər. İsrafçılığa, ümumiyyətlə, yol vermək olmaz - nə həyatda, nə siyasətdə, nə də ki, iqtisadi məsələlərin həllində, o cümlədən indiki şəraitdə. Neftlə zəngin olan bütün ölkələr, böyük potensiala malik olan ölkələr öz büdcələrini ixtisar edirlər, özü də böyük dərəcədə. Xərcləri ixtisar edirlər. Bu da təbiidir. Hər adam yorğanına görə ayağını uzatmalıdır. Hökumətlər də, dövlətlər də eyni qayda ilə hərəkət etməlidirlər. Ona görə bir daha demək istəyirəm ki, bizim nəzarət orqanlarımız buna nəzarət etsinlər, yerlərdə israfçılığa yol verilməməlidir. Hər bir vəsaitdən böyük səmərə ilə istifadə edilməlidir ki, bizim ümumi makroiqtisadi vəziyyətimiz bundan sonra da yüksək səviyyədə olsun.

Bununla bərabər, prioritet xarakter daşıyan bütün layihələr icra ediləcək, o cümlədən infrastruktur layihələri, sosial layihələr. Bu il məktəblərin tikintisi və təmiri nəzərdə tutulur. Tibb ocaqlarının, idman qurğularının, xüsusilə uşaq bağçalarının tikintisi son illərdə Azərbaycanda geniş vüsət almışdır. Bu proses davam etdirilməlidir. Çünki işsizliyin aradan qaldırılması nəticəsində indi ailədə hər iki valideyn işlə təmin olunur. Belə olan halda uşaq bağçalarının sayının artırılmasına çox böyük ehtiyac var. Yəni, bu məsələlər bir-biri ilə görürsünüz, nə qədər bağlıdır. İqtisadi inkişaf, iş yerlərinin yaradılması, işsizliyin aradan qaldırılması bax, diktə edir ki, bu məsələ də öz həllini tapsın. Eyni zamanda, iqtisadi inkişaf və müsbət demoqrafik vəziyyət diktə edir ki, iş yerlərinin yaradılmasına diqqət daim yüksək səviyyədə olmalıdır. Çünki Azərbaycan üçün bu, daimi prosesdir. Bizdə demoqrafik vəziyyət müsbətdir, əhali artır, artıq əhalimiz 10 milyona yaxınlaşır. Ona görə hər il biz on minlərlə yeni iş yerlərini yaratmalıyıq ki, işsizlik aşağı səviyyədə olsun.

İnfrastruktur layihələrinin icrası davam etdiriləcək. Burada elektrik xətlərinin təmiri xüsusi əhəmiyyət daşıyır, çünki artıq yeni güclər yaranıb. Ötürücü xətlərə də vəsait ayrılıb. Bütün xətlər yenidən qurulmalıdır, təmir edilməlidir. İçməli su, kanalizasiya layihələri, - burada qeyd olundu “Azərsu”, eyni zamanda, “Meliorasiya və Su Təsərrüfatı” Səhmdar Cəmiyyəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən icra edilir. Yəni, üç qurum bu işlərlə məşğul olur. Çaylar boyunca yerləşən kəndlərdə modul tipli təmizləyici qurğular quraşdırılır. Bu məqsədlə Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır. Artezian quyularının qazılması bu il davam etdiriləcək. Bu məqsədlə də Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır. Bu il üç yüzdən çox artezian quyusu qazılacaqdır. Bu sahə daim diqqət mərkəzindədir.

Bütün şəhərlərdə ictimai yerlər, parklar, xiyabanlar, gəzinti yerləri yaradılır. Mən bunu alqışlayıram. Əslində, bu işin təşəbbüskarı mən olmuşam. Bakıda, bütün rayonlarda həm şəhərlər gözəlləşir, eyni zamanda, insanların asudə vaxtlarını səmərəli keçirmələri üçün yeni, gözəl imkanlar yaradılır. Bu sahə də diqqətdən kənarda qalmamalıdır.

Qeyri-neft sektorunun inkişafı bizim üçün həmişə prioritet olub. Bunun nəticəsidir ki, bu gün ölkə iqtisadiyyatı dünyada çoxşaxəli iqtisadiyyat kimi tanınır. Keçən il qeyri-neft sektorumuz 7 faiz, 2013-cü ildə isə 9 faiz artmışdır. Bizim ümumi daxili məhsulumuzun tərkibində qeyri-neft sektoru üstünlük təşkil edir. Getdikcə bu rəqəm daha da artacaq və artmalıdır. Biz əlbəttə ki, bu məqsədlərə çatmaq üçün lazımi tədbirləri görürük. Burada sahibkarlığın inkişafı əlbəttə ki, öz müsbət rolunu oynayır. Çünki qeyri-neft sektorumuz sahibkarlığın inkişafı hesabına böyük dərəcədə tərəqqi edir.

Son 11 il ərzində Sahibkarlara Kömək Milli Fondunun xətti ilə iki milyard dollar məbləğində güzəştli kreditlər verilmişdir. Bu kreditlər iqtisadiyyatın real sektoruna ayrılmışdır. Kreditlərin əksəriyyəti kənd təsərrüfatı məsələlərinə, qalan hissə isə sənaye müəssisələrinin yaradılmasına yönəldilmişdir. Bu il də vəsait nəzərdə tutulur və biz görürük ki, bu kreditlər, doğrudan da, gözəl nəticələrə gətirib çıxarır. Həm sahibkarlara inam artır, çünki Azərbaycan dövləti bu layihələrdə, necə deyərlər, onlarla ortaqdır və öz payını güzəştli şərtlərlə təqdim edir, vəsait ayırır. Eyni zamanda, sahibkarların uğurlu fəaliyyəti üçün İqtisadiyyat və Sənaye Nazirliyi müxtəlif metodik sənədlər də tərtib edib ki, istənilən həcmli biznesi başlamaq istəyən üçün gözəl vəsait, yəni, əyani vəsait kimi təqdim edilir.

Bank sektorunun inkişafı son illərdə sürətlə getmişdir. Azərbaycanda indi bank sektorunda konsolidasiya gedir. Nizamnamə kapitalının artırılması nəticəsində artıq bu, bank sisteminə, ümumiyyətlə, çox müsbət təsir göstərmişdir, ölkəni və əhalini hər hansı bir sürprizdən qoruyur. Çünki artıq banklarımızın kifayət

Azərbaycan bankları hansı həcmdə, hansı layihələrə, hansı rayonlarda, yaxud da Bakı şəhərində hansı vəsait ayırıblar? Bax, bu məlumat olmalıdır. Mən də, ictimaiyyət də görsün ki, bank sektoru ancaq öz cibini güdmür, eyni zamanda, ölkənin inkişafı üçün də fəal çalışır. Mən bir dəfə bu barədə demişəm, bir daha demək istəyirəm ki, biz banklardan sosial məsuliyyət gözləyirik. Eyni zamanda, bu gün Azərbaycanda elə gözəl biznes mühiti yaranıb ki, ölkəmizə qoyulan vəsait özünü doğruldacaq və doğruldur.

Keçən il Azərbaycanda “Sənaye ili” elan edilmişdir. Bu, bizim siyasətimizi göstərir. Çünki sənayeləşmə Azərbaycanda uğurla aparılır. Sənayeləşmə aparılmasaydı, biz həmişə neft amilindən asılı vəziyyətdə olacaqdıq. Çoxsaylı sənaye müəssisələri yaradılıbdır. Mənim göstərişimlə indi hər bir rayonda sənaye zonası yaradılmalıdır. Artıq yaxın zamanlarda bu proses də başlayacaq. Burada yerli icra orqanlarının nümayəndələrinin də böyük dəstəyinə ehtiyac vardır. Çünki onlar bu işi yerlərdə təşkil etməlidirlər ki, bu zonalar müəyyən edilsin. Orada infrastruktur layihələri icra edilməlidir, kommunikasiyalar yaradılmalıdır. Əlbəttə ki, dövlət bu işi öz üzərinə götürür. Ancaq bütün təşkilati məsələlərin həllində də yerli icra orqanları fəal iştirak etməlidirlər.

Azərbaycanda texnoparklar yaradılır və bu proses sürətlə gedir. Sənaye klasterləri yaradılır, yaradılacaqdır. Böyük, nəhəng sənaye obyektləri tikiləcəkdir. Xüsusilə mən burada metallurgiya kompleksinin tikintisini qeyd etmək istəyirəm. Çünki bu, bir növ bizim üçün yeni sənaye sahəsi olacaq ki, bunun da xammal, resurs bazası var, ixrac imkanları da kifayət qədər genişdir. Ona görə bu sahəyə dövlət investisiyaları qoyulur. O sahələr ki, ölkəmiz üçün strateji əhəmiyyət daşıyır və o sahələr ki, öz növbəsində, həm ixrac potensialımızı artıracaq, eyni zamanda, özəl sektorun fəaliyyətinə təkan verəcək, o sahələrə dövlət investisiyalar qoyur, qoymalıdır. Çünki böyük metallurgiya kompleksinin işə düşməsi nəticəsində minlərlə şirkət, özəl şirkət yaranacaq ki, orada hazırlanan məhsullardan son məhsulu Azərbaycanda istehsal etsin və biz idxaldan asılılığımızı azaldaq.

Bakı, Sumqayıt, Gəncə bizim ⇨ 5

# Prezident İlham Əliyev: Tarixi, dini abidələrimiz, mədəniyyətimiz təkcə memarlıq abidələri deyil, eyni zamanda, tərbiyə vasitəsidir

4 ⇦ əsas sənaye şəhərlərimizdir. Eyni zamanda, Mingəçevir də böyük sənaye şəhərinə çevrilməlidir. Sumqayıt, nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Gəncə şəhəri isə əminəm ki, gələcəkdə Cənubi Qafqazın üçüncü böyük sənaye şəhərinə çevriləcəkdir. Bu məqsədlər üçün lazımi tədbirlər görülür.

Son vaxtlar sürətlə inkişaf edən sənaye sektorumuz imkan verir ki, biz özümüzü tikinti materialları ilə də təmin edək. Tikinti materialları ilə də bağlı çox gözəl mənzərə yaranmışdır. İndi mən bəzi rəqəmləri səsləndirəcəyəm, ilk növbədə, ictimaiyyət, eyni zamanda, biznes qurumları da bunu bilsinlər ki, hansı sahələrə onlar daha çox investisiya qoysunlar.

Azərbaycan bazarı böyüyür. Azərbaycan indi kiçik ölkə sayıla bilməz. Əhali təxminən 10 milyona yaxınlaşır. Biz əhalinin sayına görə orta səviyyəli ölkəyik. Ancaq bu qədər sürətli inkişafın getdiyi bir ölkədə əlbəttə ki, daxili bazar ya yerli məhsullarla artıq tam dolacaq, ya da ki, bir neçə ildən sonra. Ona görə gələcəkdə Azərbaycan iqtisadiyyatının hərəkətverici qüvvəsi ixrac potensialımız olacaq. İxrac potensialı yaratmaq olar və yaradırıq. İndi söyləyəcəyim rəqəmlər bunu göstərəcək. Ancaq biz gərək ixrac bazarları da əldə edək.

İndi bazarlar uğrunda mübarizə gedir. Böyük dövlətlər, böyük sənaye potensialına, əlaqələrə, təsir gücünə malik olan ölkələr bütün mövcud bazarları əldə ediblər. Onlar bir çox hallarda siyasi nüfuzdan istifadə edərək digər ölkələrin bazarlarına öz məhsulları ilə çıxırlar və düz də edirlər. Biz də bunu edirik və etməliyik. Siyasi hakimiyyət biznesi dəstəkləməlidir. Azərbaycan dövləti də, biz də dəstəkləyirik. Sənaye məhsullarının istehsalında, ilk növbədə, iş adamları yeni bazarlara çıxmalıdırlar. Mən bunu dəfələrlə demişəm, xaricdə fəaliyyət göstərən səfirlərlə görüşlərdə onlara da tapşırmışam, gedin, çalışdığınız ölkələrdə Azərbaycan biznesi üçün şərait yaradın ki, gəlsinlər, öz ixrac məhsulları ilə o bazarlara girsinlər.

Bizim ümumi daxili məhsulumuzda neft amili artıq üstünlük təşkil etmir. Amma ixrac potensialımızın əksəriyyəti təbii resurslarımızdır. Biz hazır məhsullarla xarici bazarlara çıxmalıyıq, indi çıxırıq və çıxacağıq. Ona görə söyləyəcəyim rəqəmlər iş adamlarına da bir tövsiyə olmalıdır ki, artıq bu sahələrdə biz özümüzü təmin etmişik. Bu sahələrə vəsait qoymaq istəyirsinizsə siz artıq rəqabətqabiliyyətli sənaye müəssisəsi yaratmalısınız ki, indi mövcud olan şirkətlərlə rəqabətdə siz udasınız. Yoxsa, əgər biz hansısa bir məhsulla özümüzü yüz faizdən çox təmin ediriksə, indi buna bənzər başqa eyni sənaye müəssisəsinin yaranmasına nə ehtiyac var? Ona görə burada tənzimləmə işlərini aparan İqtisadiyyat və Sənaye Nazirliyi ixrac bazarlarına çıxmağımız üçün daha da çox iş görməlidir.

Beləliklə, əsas tikinti materiallarının istehsalı üzrə son məlumat: Sement istehsalı – Azərbaycanda istehlak 4,4 milyon ton. Daxili istehsal hazırda 3 milyon ton. Amma ölkə üzrə istehsal gücü 5,2 milyon ton. Yəni, gələn il, bəlkə də bu il biz özümüzü sementlə tam şəkildə təmin edəcəyik və sement zavodları məhsullarını ixrac edəcək. Ona görə hazırda yeni sement zavodunun tikintisinə ehtiyac yoxdur.

Bentonit – istehlak 8 min ton, istehsal 85 min ton, ixrac etmişik 72 min ton, istehsal gücü 250 min ton, yəni, 100 faizdən çox. Gips – istehlakımız 58 min tondur, daxili istehsal 193 min ton, potensial 3 yüz min ton, yəni üç dəfə çoxdur.

Beton bloklar, borular – istehlak 100 min ton. 100 min ton da istehsal edirik, potensial 300 min ton, 100 faizdən çox. Alçipan, yəni, karton gips 12 milyon kubmetr istehlak edirik. Daxili istehsal 11 milyon, istehsal gücü 16 milyon, 100 faizdən çox.

Polietilen borular – daxili istehlak 22 min tondur. 18 min ton istehsal olunur. İstehsal gücü 300 min tondan çoxdur və artıq ixrac da edilir.

Mərmər və qranit - Azərbaycanda istehlak 83 min ton. İxrac edirik 30 ton. İstehsal edirik 62 min ton və potensial 100 min tondan çox.

Əhəng - 20 min ton istehlak olunur. 14 min ton daxili istehsal və 40 min tondan çox istehsal gücü. Bu da 100 faizdən çox.

Elektrik kabelləri - 10 min ton istehlak edirik. 5 min ton istehsal edirik, potensial 40 min tondan çoxdur.

Poladdan uzun yayma məhsullar - 335 min ton istehlak edirik. Daxili istehsal 235 min ton, potensial 500 min ton, yəni burada biz özümüzü təmin etmirik.

Metal konstruksiyalar 114 min ton daxili istehsal, 200 min tondan çox istehsal gücü, 100 faizdən çox.

Seramik plitələr - 8 milyon kubmetr Azərbaycanda istehlak olunur və 4 milyon kubmetr bizim potensialımız var. Bax, budur əsas tikinti materialları. Deməli olar ki, biz özümüzü əsas tikinti materialları ilə təmin etmişik və ona görə ixrac edirik. Gələcəkdə bax, bu sahəyə qoyulan investisiyalar bu statistikanı nəzərə almalıdır.

Bu il "Kənd təsərrüfatı ili" elan edilmişdir. Bu, bizim üçün prioritetdir. Gələcəkdə kənd təsərrüfatı, sənaye inkişafı bu qeyri-neft sektorunun əsas istiqamətləridir, islahatlar aparılır. Bu gün bu barədə məlumat verildi, həm struktur islahatları aparılır, eyni zamanda, kənd təsərrüfatının səmərəliliyinin artırılması üçün tədbirlər görülür. Ərzaq təhlükəsizliyi hər bir ölkə üçün böyük önəm daşıyır. Biz sovet dövründə özümüzü əsas ərzaq məhsulları ilə təmin edə bilməmişik. Ona görə yox ki, təmin edə bilmirdik. Ona görə ki, o vaxt - sovet dövründə bir bölgü var idi. Azərbaycanda neft, ağır sənaye, neft-kimya, pambıq, üzüm istehsalı və s. Ancaq o vaxt heyvandarlığın o qədər də inkişaf etməsinə imkan vermirdilər. Ona görə biz əsas ərzaq məhsullarını Rusiyadan, Ukraynadan gətirirdik. Yəni, belə bölünürdü. Sovet xalq təsərrüfatı sistemi belə idi. Ona görə müstəqilliyin ilk dövrlərində biz idxaldan böyük dərəcədə asılı vəziyyətə düşmüşdük. Bu vəziyyəti dəyişmək üçün çox ciddi tədbirlər görüldü və son illər ərzində biz ərzaq təhlükəsizliyimizi demək olar ki, təmin etmişik. Bu barədə də mən rəqəmləri bir qədər sonra səsləndirəcəyəm.

Müasir texnika, cins mal-qara alınır. Fermerlərə güzəştlər edilir. Fermerlər bildiyiniz kimi, torpaq vergisindən başqa bütün vergilərdən azaddırlar. Kənd təsərrüfatının inkişafında ən qabaqcıl təcrübə tətbiq edilməlidir. Taxılçılıqda iri fermer təsərrüfatları yaradılıbdır və biz bunun gözəl nəticələrini görürük. Bu iri fermer təsərrüfatlarında məhsuldarlıq orta məhsuldarlıqdan iki dəfə çoxdur - 55 sentner. Bu il isə bizdə taxılda məhsuldarlıq 23 və ya 24 sentnerdir. Yəni, bu proses davam etdiriləcək. Birinci mərhələdə 4 min 8 yüz hektar torpaq sahəsi əhatə edilmişdir. İndi icra edilən layihələr çərçivəsində 30 min hektar torpaqda iri fermer təsərrüfatları fəaliyyət göstərəcək.

Bir daha demək istəyirəm ki, biz dünyanın ən qabaqcıl təcrübəsini, müasir texnikanı tətbiq etməliyik, bütün lazımi tədbirləri görməliyik, xidmət lazımi səviyyədə göstərilməlidir. Burada səslənən məsələlər də öz həllini tapmalıdır. Yem təminatı əsas məsələdir, toxum fondu yaradılmalıdır. Biz özümüzü indi yeni texnika ilə təmin edirik. Hesab edirəm ki, yaxın illərdə biz bu məsələni tam şəkildə həll edəcəyik.

İstifadəsiz qalan torpaqlar da kifayət qədər çoxdur. Vaxtilə kimsə onları ya zəbt edib, ya icarəyə götürüb. İcarəyə götürüb və elə də qoyub gedib. Deyir ki, mənim orada, burada torpağım var. Sənin torpağın varsa, get, o torpaqda iş gör. Yəni, hesab edirəm ki, biz istifadəsiz torpaqların taleyi ilə bağlı tədbir görməliyik. Kim torpağı icarəyə götürüb istifadə etmirsə, gərək o icarə müqavilələri ləğv edilsin. O müqavilələr verilsin o torpaqda işləyənə. Yoxsa torpağı götürürlər, ondan sonra təyinatı dəyişdirirlər, daha sonra o torpaqlarda müxtəlif obyektlər tikilir və s. Bu, yolverilməzdir. Yerli icra orqanlarının nümayəndələri nəzarət etməlidirlər. Onların rayonlarında əgər kimsə bu işlə məşğul olursa, buna qarşı tədbir görülməlidir.

Mərkəzi orqanlar da burada yeni təkliflərlə çıxış etməlidirlər ki, istifadəsiz torpaqlar olmasın. Onsuz da bizim o qədər də çox torpağımız yoxdur. İcazə verə bilmərik ki, istifadəsiz qalsın, yaxud da ki, torpaqdan səmərəli şəkildə istifadə edilməsin. Əksinə, mən keçən il demişəm, bir daha demək istəyirəm ki, hər bir rayonda ixtisaslaşma aparılmalıdır. Hansı rayonda nə əkilməlidir, hansı məhsul yetişdirilməlidir?! Budur, bizim əsas işimiz.

Ona görə kənd təsərrüfatının inkişafı prioritet məsələdir. Bu, sosial, iqtisadi sahədir, qeyri-neft sektorunun inkişafı üçün dəstəkdir. Üstünlüyümüz ondan ibarətdir ki, bizim ətrafımızda böyük bazarlar var. O bazarlara bizim ənənəvi çıxışlarımız var. Azərbaycan məhsulları o bazarlarda tanınır və o bazarlarda Azərbaycan məhsulunun artımını gözləyirlər. Ona görə biz ənənəvi bazarlarda işləməliyik, daha fəal, daha da geniş əhatə dairəmiz olmalıdır və biz yeni bazarlara çıxmalıyıq, həm regional, həm beynəlxalq. Biz Avropa bazarlarına çıxmalıyıq. Bizdə indi emal müəssisələri dünya səviyyəsinə cavab verir, gözəl müəssisələrdir. Onların - əsas emal müəssisələrinin açılışlarında mən şəxsən olmuşam, yəni, bilirəm, onların vəziyyəti necədir. İstehsal olunan məhsullar da keyfiyyətlidir. Biz niyə Avropa bazarlarına çıxmayaq?! Biz nə vaxtsa Dünya Ticarət Təşkilatına üzv olacağıq. Biz buna əlbəttə ki, hazır olanda. Hazır olmaq üçün gərək ixrac potensialımız çoxşaxəli olsun.

Ona görə kənd təsərrüfatı məhsullarının istehsalı, daxili tələbatın ödənilməsi və ixracı bir sistem olmalıdır. Kənd təsərrüfatı intensiv metodlarla inkişaf etməlidir. Eyni zamanda, Taxtakörpü, Şəmkirçay su anbarlarının tikintisi nəticəsində on minlərlə hektar torpaq sahələri dövriyyəyə buraxılacaq. Artıq bu il işlər başlanıbdır. Səhraya bənzəyən yerlər gül-çiçək, bostan, bağ olacaq. Budur, bizim işimiz.

Artıq o yerlər müəyyən edilib. İndi Azərbaycanda aqroparklar tikilir. Şəmkirçay su anbarının açılışı günü aqroparkın təməl daşı qoyuldu. Nə üçün? Çünki Şəmkirçay su anbarı tikildi. Şəmkirçay su anbarı tikilməsəydi, orada aqroparkı heç kim tikməzdi. Çünki su olmayan yerdə hansı aqropark ola bilər. Ona görə bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Aqroparkların tikintisi geniş vüsət almalıdır.

Biz özümüzü ərzaq məhsulları ilə 100 faiz təmin etməliyik və ixrac etməliyik. İndi mən rəqəmləri deyəcəyəm. Ümumiyyətlə, bir daha demək istəyirəm ki, ixrac olmadan Azərbaycan iqtisadiyyatı, həmçinin qeyri-neft sektoru inkişaf edə bilməz. Çünki biz daxili tələbatı artıq ödəyirik. İxrac, bir daha demək istəyirəm ki, düşünülmüş siyasət nəticəsində mümkündür.

"Yaşıl market"lər Azərbaycanda yaranmaqdadır. Bu da bir yenilik olacaq. Bakıda yaranır. Gələcəkdə bütün şəhərlərdə yaranmalıdır.

Torpaqların elektron uçot sistemi məsələsi var, - bu məsələ ilə bağlı mən öz fikirlərimi keçən il demişəm. Bu, torpaqlardan səmərəli istifadə etmək üçün əsas şərtdir. Biz bilməliyik ki, harada, nə qədər, hansı keyfiyyətə və münbitliyə malik olan torpaq sahələrimiz var. Bütün bu məsələlər dünyanın inkişaf etmiş ölkələrində çoxdan həll olunub. Bizim indi belə gözəl imkanımız var. "Azersky" ikinci peykimizdir. Bu peykin üstünlüyü ondadır ki, o, Yer səthini böyük dəqiqliklə müşahidə edir. Yəni, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi bu imkanlardan istifadə etməlidir. Bu, sizə əlavə bir dəstək olacaq. O peykdən bütün sahələri müşahidə etmək mümkündür ki, harada hansı torpaq var, bu torpaq kimə məxsusdur, bu torpağın ölçüləri nədir, orada nə əkilir və nə əkilməlidir. Bu tövsiyələr verilməlidir. Elektron uçot sistemi budur. Yoxsa, biz indi kortəbii, belə arayışda, kağızda, xəritə ilə işləyirik. İş belə getməyəcək. Bu işdə müasir yanaşma olmalıdır. Özü də bir daha demək istəyirəm ki, bütün şəraiti yaradırıq, vəsait ayırırıq. Dəfələrlə torpaqların elektron uçotu haqqında demişəm. Yaxşı, mən nəticə gözləyirəm. Ona görə nəticə çıxarın. Gələn müşavirədə torpaqların elektron uçotu ilə bağlı mənə məruzə edilməlidir.

Ümumiyyətlə, "elektron kənd təsərrüfatı" layihəsi lazımi səviyyədə getmir. Ona görə ciddi tədbir görün. Yerlərdə icra başçıları, şöbələr bütün məlumatları dəqiqliklə verməlidirlər. Bu təhlil bir yerdə aparılmalıdır. "Azersky"dan müşahidə aparılarkən bu məlumatlar təsdiq edilməlidir. Ondan sonra düyməni basıb biz biləcəyik ki, harada nəyimiz var, nə əkilməlidir və haradan istifadə olunmur. Çünki mən bilirəm ki, istifadəsiz torpaqlar çoxdur. Amma dəqiqliklə kim mənə deyə bilər ki, haradan istifadə olunur, haradan yox. İndi yerlərdən istənilən arayış da verilə bilər. Amma nəzarət mexanizmi olmalıdır. İnsanlar o yerlərə ezam edilməlidir, müşahidə aparılmalıdır, müşahidə də yuxarıdan təsdiqlənməlidir.

İndi peykimizin olduğu bir vaxtda nəyisə gizlətmək, yaxud da ki, əksinə nəyisə artırmaq, rəqəmləri şişirtmək çətin olacaq. Buna da son qoyulmalıdır və son qoyulur. Kənd təsərrüfatı məhsullarının bəzilərinin istehsalının aşağı düşməsi təkcə quraqlıqla bağlı deyil. İndi kənd təsərrüfatı naziri bəlkə də demək istəmirdi. Dedi ki, quraqlıqla bağlıdır. Təkcə quraqlıqla bağlı deyil. Çünki əvvəllər qiymətlər şişirdilirdi. Nəyə görə? Subsidiyalara görə. Məgər

⇨ 6

# Prezident İlham Əliyev: Tarixi, dini abidələrimiz, mədəniyyətimiz təkcə memarlıq abidələri deyil, eyni zamanda, tərbiyə vasitəsidir

5 ⇦ burada oturanlar bilmir subsidiyaların hansı pozuntular baş verirdi? Yaxşı bilir və bəziləri bu pozuntuların iştirakçılarıdır. Ona görə buna son qoyulmalıdır. Dövlət bu pulu fermerlərə verir, məmurlara yox. Ona görə indi statistik göstəricilər daha da realdır.

Nəticə çıxarın. Bir daha demək istəyirəm ki, bütün işlərdə şəffaflıq olmalıdır. Bütün sahələrdə səmərəli iş aparılmalıdır. Ancaq o təqdirdə Azərbaycanın uğurlu inkişafı təmin oluna bilər.

Qeyd etdiyim kimi, təşviq sistemi yaradılmalıdır. Bir çox ölkələrdə belə sistem var. Əvvəllər biz buna o qədər də meyilli deyildik, çünki bizim ixrac potensialımız da yox idi, ancaq hələ idxaldan asılılığı azaltmaqla məşğul idik. İndi isə ixrac potensialımız var, ona görə təşviq sistemi yaradılmalıdır. Mən İqtisadiyyat və Sənaye Nazirliyinə tapşırıram ki, bu mexanizmi işləyin. Yaxın vaxtlarda biz bunu müzakirə edəcəyik. Bu, sahibkarlara imkan verəcək ki, daha da maraqlı olsunlar və öz məhsullarını xaricə satsınlar. Beləliklə, onlar üçün əlavə güzəştlər olacaq.

Ərzaq təhlükəsizliyi ilə bağlı görülən işlərin statistik əksi bu arayışdadır. Mən indi bəzi rəqəmləri səsləndirəcəyəm. Mal əti - özümüzü təminetmə səviyyəsi 87 faiz, qoyun əti - 97 faiz, quş əti - 98 faiz, yumurta - 100 faiz, süd və süd məhsulları - 76 faiz, taxıl - 60 faiz, üzüm - 98 faiz, kartof - 90 faiz, bostan məhsulları - 100 faiz, meyvə və giləmeyvə - 120 faiz, tərəvəz - 103 faiz, duz - 87 faiz, şəkər və şəkərdən hazırlanan məhsullar - 170 faiz. Ancaq burada nəzərə alınmalıdır ki, şəkər tozunun istehsalının maya dəyərində 64 faiz xam şəkər idxal olunur, 36 faiz dəyər Azərbaycanda formalaşır. Bitki yağları və marqarin - 77 faiz, kərə yağı - 52 faiz, makaron məmulatları - 58 faiz. Bu cədvəldə göstərilir ki, bizim gələcək fəaliyyətimiz hansı istiqamətlərdə daha da ciddi olmalıdır. Biz bütün bu pozisiyalar üzrə 100 faiz səviyyəsinə çatmalıyıq. Burada ən ağır pozisiya əlbəttə ki, taxıldır. Ancaq hesab edirəm ki, iri fermer təsərrüfatlarının yaradılması nəticəsində biz bu məqsədə çatacağıq.

Mən hesab edirəm ki, üçüncü proqramın başa çatması nəticəsində biz bütün bu rəqəmləri 100 faizdən artıq səviyyədə görməliyik və görəcəyik.

Regionlarda, ümumiyyətlə, ekoloji vəziyyət yaxşıdır. Biz ekoloji tədbirlərin görülməsi üçün daha çox diqqəti Bakıya yönəldirik, bu da təbiidir. Bölgələrdə yaxşıdır, amma bu, daim diqqət mərkəzində olmalıdır.

Azərbaycanda turizmin inkişafı sürətlə gedir, yeni otellər, istirahət zonaları, beynəlxalq səviyyəli istirahət zonaları açılır. Bizdə turizm potensialı şimal, şimal-qərb, cənub və qərb bölgələrində, əlbəttə ki, Bakı şəhərində inkişaf edir. Biz vaxtilə fəaliyyət göstərən, sonra köhnəlmiş turizm yerlərimizi bərpa edirik. Misal üçün, indi Naftalan öz şöhrətini özünə qaytarır. Naftalan Sovet İttifaqı zamanında bir mərkəz idi. İndi beynəlxalq mərkəzdir. Burada üç gözəl otel fəaliyyət göstərir. Mən üçünün də açılışında olmuşam. Yeni otellər tikilir və gözəl bir turizm mərkəzidir. "Qalaaltı" müalicəvi su kurortunda da artıq böyük işlər görülür. Yəqin ki, bu il açılacaqdır. Qusar rayonunda yerləşən "Şahdağ" xizək kurortu da indi dünya səviyyəli turizm mərkəzidir. Digər bölgələrdə, cənub və qərb bölgələrində turizm imkanları genişlənir.

Bölgələrdə xidmətlər göstərilir. "ASAN xidmət" mərkəzlərinin sayı artıq yeddiyə çatıb. Üç mərkəz də bu il açılacaq. Beləliklə, bölgələrdə altı, Bakıda dörd mərkəz fəaliyyət göstərəcək. Gələcəkdə onların sayını artıracağıq. On avtobusla səyyar xidmət də göstərilir və bütün bölgələrdən "ASAN xidmət"lə bağlı çox müsbət məlumatlar gəlir. Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə "ASAN xidmət" bir dönüş yaratdı. Ona görə biz bu sistemi bütün sahələrdə tətbiq etməliyik.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə böyük uğurlar var. Beynəlxalq qurumlar da bunu qeyd edir, əhali də bunu yüksək qiymətləndirir. Cəza tədbirləri, inzibati tədbirlər və sistem xarakterli islahatlar aparılır ki, biz bu bəlanı, bu yaranı aradan götürək.

Ölkəmizin uğurlu inkişafı üçün vətəndaş-məmur münasibətləri mühüm əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə də nümunəvi ölkə olmalıdır. Məmurlar yaddan çıxarmamalıdırlar ki, onlar xalq üçün işləyirlər, onlar xalqın xidmətçiləridir. Dəfələrlə demişəm ki, mən birinci xidmətçiyəm. Xalqın birinci xidmətçisi Prezident olmalıdır, çünki xalq bizə inanır, bizə bu missiyanı aparmağı həvalə edib, tapşırıb. Biz bütün məmurlar da bu yüksək etimadı doğrultmalıyıq. Məmurlar, dövlət qurumlarının nümayəndələri xalqla bir yerdə olmalıdırlar, onların qayğıları ilə yaşamalıdırlar, kobudluğa, yekəxanalığa yol verilməməlidir. Bəzi hallarda yekəxanalıq müşahidə olunur, bəzi hallarda məmurlar özlərini çox təkəbbürlü aparırlar. Buna yol vermək olmaz. Siyasi mədəniyyət olmalıdır və insanlara hörmətlə yanaşmaq lazımdır. Deyə bilərəm ki, əksər hallarda biz müsbət mənzərə görürük. Ancaq mənfi mənzərə ilə üzləşəndə tədbir də görülür, məmurlar cəzalandırılır. Etimadı doğrultmayan məmurlar bundan sonra da cəzalandırılacaqlar. Hər dəfə icra başçılarını işə təyin edərkən mən onlara öz sözlərimi deyirəm: Gedin təmiz işləyin, xalqla bir yerdə olun, rüşvətxorluqla məşğul olmayın, dövlətə, müstəqilliyə sadiq olun. Budur mənim tələblərim, əsas tələblərim. Hər yerdə belə olmalıdır. Çünki bir daha demək istəyirəm ki, Azərbaycanın inkişafı və ictimai-siyasi vəziyyətin müsbət istiqamətdə inkişafı bütün dünyada gedən böhranlardan asılı olmayaraq, bizim böyük sərvətimizdir. Müstəqil Azərbaycan bu gün nadir inkişaf dövrünü yaşayır. Azərbaycanda sürətli inkişaf prosesi gedir, düşünülmüş siyasət, müstəqil siyasət aparılır. Budur bizim uğurlarımızın təməlində dayanan əsas amillər. İqtisadi, siyasi islahatlar aparılır, bütün azadlıqlar təmin edilir, demokratiyanın inkişafı sürətlə gedir və xalqla iqtidar arasındakı birlik uğurlu inkişafımızın əsas amilidir.

Bu gün dünyada nadir Azərbaycan inkişaf modeli var. Artıq biz bu barədə də danışa bilərik, çünki bu model, doğrudan da, bir nümunə kimi hər bir ölkə üçün maraqlı olmalıdır. Siyasi, iqtisadi islahatlar, müstəqil siyasət, dinlərarası dialoq, yüksək səviyyəli milli dini tolerantlıq, dözümlülük, sosial siyasət və görülən işlər göz qabağındadır. Bunu dost görür sevinir, düşmən gəlib görəndə kefi pozulur. Biz bundan sonra da elə işləməliyik ki, xalqımız, dostlarımız sevinsin, düşmənin pis niyyəti gözündə qalsın. Əminəm ki, belə də olacaq, Azərbaycan bundan sonra da uğurla inkişaf edəcəkdir. Sağ olun.

*AzərTAc*



## Şimon Lankri: Akko şəhərində Azərbaycan multikulturalizminin öyrənilməsi vacibdir

***Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev ölkəmizdə səfərdə olan İsrailin Akko şəhərinin meri Şimon Lankrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Kamal Abdullayev Azərbaycanda tarixi köklərə malik multikulturalizm və tolerantlıq mədəniyyətinin bu gün dövlət siyasətinin tərkib hissəsinə çevrilməsindən və bu istiqamətdə Prezident İlham Əliyev tərəfindən ölkəmizdəki milli, dini icmalara göstərilən bərabər qayğı və diqqətdən, multikulturalizmin Azərbaycan modelinin dünya xalqlarına və dövlətlərinə nümunə kimi təqdim edilməsi üçün atılan addımlardan söz açıb.

Akko şəhərinin meri Şimon Lankri ilk dəfə Azərbaycanda olduğunu dedi. Akkoda bir çox millətlərin nümayəndələrinin yaşadığını bildirən mer Azərbaycan multikulturalizminin bu şəhərdə həm akademik, həm də digər müstəvilərdə öyrənilməsi üçün əməkdaşlığa hazır olduqlarını söyləyib. O, yəhudilərlə yanaşı, müsəlmanların, xristianların da yaşadıqları bir şəhərdə bunun çox vacib olduğunu vurğulayıb.

Görüşdə İsrailin və Azərbaycanın təhsil, mədəniyyət, multikulturalizmin təşviqi baxımından birgə əməkdaşlığı mövzusunda fikir mübadiləsi aparılıb.

## Azərbaycanın multikulturalizm strategiyası böyük fərəh doğurur



**Azərbaycanda səfərdə olan İsrailin Akko şəhərinin meri Şimon Lankrinin başçılıq etdiyi nümayəndə heyəti yanvarın 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində olub.**

Görüşdə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda vətəndaşların vicdan azadlığının təmin olunması istiqamətində görülən işlər, ölkəmizdə hökm sürən tolerant və multikultural mühit haqqında məlumat verib. O, Azərbaycanda bütün millətlərin nümayəndələri, o cümlədən yəhudilər üçün çox yaxşı birgəyaşayış şəraitinin yaradıldığını diqqətə çatdırıb.

Sədr yəhudi icması nümayəndələrinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı azərbaycanlılarla çiyin-çiyinə vuruşmaları və qəhrəmanlıqla şəhid olmaları faktını xalqımızın heç vaxt unutmayacağını qeyd edib.

Akko şəhərinin meri Şimon Lankri Azərbaycanın dinlərarası və mədəniyyətlərarası dialoq üçün nümunəvi platformaya çevrilməsinin, ölkəmizin multikulturalizm strategiyasının dünyada böyük fərəh doğurduğunu diqqətə çatdırıb. O, əlaqələrimizin möhkəmlənməsində Azərbaycan xalqı ilə ölkəmizdə məskunlaşmış yəhudi icması arasında münasibətlərin böyük rolunun olduğunu bildirib.

# 20 Yanvar hadisələri müstəqilliyə aparan yolda ilk böyük itki və qəhrəmanlıq nümunəsidir

**Yanvarın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində xalqımızın tarixinə qanlı hərflərlə yazılmış 20 Yanvar faciəsinin 25-ci ildönümü ilə əlaqədar anma tədbiri keçirilib.**



Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək 20 Yanvar faciəsinin səbəbləri və nəticələri barədə danışıb.

Bildirib ki, Azərbaycan xalqı 1990-cı il yanvarın 20-də hərbi, siyasi və mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirib. 20 Yanvar faciəsi zamanı həlak olan dinc sakinlərin içərisində azərbaycanlılarla yanaşı, digər millətlərin, xalqların nümayəndələri də var idi. Bu, bir daha göstərir ki, azərbaycançılıq ideyası ölkəmizdə yaşayan bütün xalqlara məxsus ideyadır.

Qeyd edilib ki, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 20 Yanvar hadisələri müstəqilliyə aparan yolda ilk böyük itki və qəhrəmanlıq nümunəsidir. Günahsız insanların qətli ilə nəticələnən bu faciəyə ilk dəfə siyasi-hüquqi qiyməti Ulu Öndər Heydər Əliyevin verdiyini və onun hadisəni ört-basdır etmək istəyən imperiya rəhbərliyinin Azərbaycan əleyhinə xəyanətkar siyasətinə qarşı çıxaraq ölkəmizin haqq səsini müdafiə etdiyini vurğulayan Mübariz Qurbanlı bildirib ki, bu, informasiya blokadasının olduğu çətin bir vaxtda olduqca vacib addım idi.

Mərasimdə çıxış edən Milli Məclisin sədr müavini Bahar Muradova bildirib ki, Azərbaycan xalqı 20 Yanvar hadisələrinin nəticələrini, bu nəticələrdən doğan kədəri, təəssüfü, acını, eyni zamanda, etirazı artıq 25 ildir daxilində gəzdirir və minilliklər boyu üzləşdiyi çətinliklər kimi bu çətinliyi də çox böyük iradə və cəsarətlə dəf edir. 20 Yanvar hadisələri Azərbaycan xalqının tarixinin qanlı həyat səhifələrindən biridir, eyni zamanda, şanlı səhifəsidir. Bu tarixin arxasında bir xalqın, bir millətin milli azadlıq ideyalarının fəaliyyətini, fədakarlığını və qəhrəmanlığını yada salırıq. Hər dəfə də çox böyük qürur hissi ilə bu ideyalardan doğan qəhrəmanlığı fəxarətlə qeyd edirik. Hər bir xalq öz müstəqilliyinə qovuşmaq üçün əsrlərlə mübarizə aparır, kimlərsə onu qoruyub saxlaya bilir, kimlərsə itirir. Azərbaycan da müstəqilliyini bir neçə dəfə itirib- qazanan ölkələrdən biridir.

Bahar Muradova zaman-zaman bu cür faciələrlə üz-üzə qalan Azərbaycanın bütün sınaqlardan uğurla çıxdığını, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün dünyada öz sözünü deyən ölkələr sırasına daxil olduğunu vurğulayıb.

"20 Yanvar" Cəmiyyətinin sədri Sultan Əzimzadə, Qafqaz Müsəlmanlari İdarəsi sədrinin müavini Fuad Nurulla, Bakı şəhəri Dağ yəhudiləri dini icmasinin sədri Milix Yevdayev, Azərbaycan Respublikasında Roma Katolik Kilsəsinin apostol prefekturasının ordinarisi Vladimir Fekete və digər şəxslər çıxış edərək bildiriblər ki, 20 Yanvar tarixi təkcə matəm günü yox, həm də milli qürur günü kimi tariximizə həkk olunub. Qeyd olunub ki, hər il yanvarın 20-də ölkəmizin bütün məscid, kilsə və sinaqoqlarında şəhidlərin xatirəsi yad edilir, ruhlarına dualar oxunur.



## Dövlət Komitəsinin sədri "Yehovanın Şahidləri"nin Avropa Assosiasiyasının nümayəndələri ilə görüşüb

**Yanvarın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "Yehovanın Şahidləri"nin Avropa Assosiasiyasının nümayəndələrini qəbul edib.**

Görüşdə "Yehovanın Şahidləri"nin Avropa Assosiasiyasının nümayəndələri Mark Hanson, Vasili Kalenlə yanaşı, yerli icmanın təmsilçiləri də iştirak ediblər. Görüş zamanı qonaqlar Assosiasiyanın fəaliyyəti ilə bağlı məlumat veriblər. Qeyd ediblər ki, Assosiasiya Avropa məkanında geniş fəaliyyət göstərir.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, ölkədə vətəndaşların dini etiqad azadlığı təmin olunub. Azərbaycanda zərərli dini ideyalar yaymayan, dinlərarası münasibətlərə xələl gətirəcək fəaliyyət göstərməyən bütün dini konfessiyaların fəaliyyətinə şərait yaradılıb.

Qarşılıqlı hörmət və səmimiyyət şəraitində keçən görüşün sonunda qonaqlar səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildiriblər.

# Mübariz Qurbanlı avropalı qonaqları qəbul edib



Yanvarın 22-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Demokratiya Naminə Avropa Fondunun nümayəndələrini qəbul edib.

Qəbulda Fondun rəhbəri Roberta Bonazzi, əməkdaşları Tomasso Virgili və Demir Murat Seyrek iştirak edib. Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, fikir və təcrübə mübadiləsi baxımından bu cür görüşlərin keçirilməsi olduqca vacibdir. O, qeyd edib ki, dünyəvilik və tolerantlıq Azərbaycan xalqının təfəkkür tərzidir. Azərbaycanda bütün konfessiyalar dinc şəraitdə fəaliyyət göstərirlər. Bunu heç bir cərəyan, heç bir qüvvə dəyişə bilməz. Bizim bu təcrübə- multikultural və tolerant cəmiyyətimiz Avropada da təşviq edilə bilər. Mübariz Qurbanlı bildirib ki, ölkəmizdə dinə yüksək səviyyədə dövlət qayğısı var və bu qayğı bütün konfessiyaları əhatə edir.

Görüş zamanı müxtəlif məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. Qarşılıqlı hörmət və səmimiyyət şəraitində keçən görüşün sonunda qonaqlar səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildiriblər.

# Mübariz Qurbanlı: "Azərbaycanda sinaqoqlara qarşı istənilən terror təhlükəsinin olması ehtimalı sıfıra bərabərdir"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkədə radikal terrorçular tərəfindən yəhudi sinaqoqlarına mümkün hücum təhlükəsi ilə bağlı yayılan məlumatlara münasibət bildirib.

M.Qurbanlı APA-ya eksklüziv açıqlamasında bildirib ki, Azərbaycanda digər dini məbədlərlə yanaşı, yəhudi sinaqoqlarına da hansısa bir təhlükə yoxdur.

O qeyd edib ki, Azərbaycanda sinaqoqlara qarşı istənilən terror təhlükəsinin olması ehtimalı sıfıra bərabərdir: "Bizim hüquq-mühafizə orqanlarımız da kifayət qədər səriştəlidir və Azərbaycanda ictimai asayişin, dövlətə məxsus binaların qorunduğu kimi kilsələrin, məscidlərin, sinaqoqların qorunması da yüksək səviyyədə təşkil olunur. Ona görə də mən bizim ölkədə yəhudilərə məxsus dini sinaqoqlara qarşı terrorun, təxribatın, hansısa fitnənin törədilməsi ehtimalına o qədər də inanmıram. İnanmıram ki, Azərbaycanda kimsə buna cəhd eləsin. Çünki bilirlər ki, belə cəhdin qarşısı dərhal alınacaq".

Qeyd edək ki, İsrail mediası "İŞİD" terrorçuları tərəfindən mümkün hücum təhlükəsinə qarşı Azərbaycanda inzibati və sənaye obyektlərinin, eləcə də sinaqoqların mühafizəsinin gücləndirildiyi barədə xəbər yayıb. Təhlükəsizlik tədbirlərinin "İŞİD"in "daxili işlər naziri" Vahid Xudayar Əhmədin Azərbaycana qarşı terror çağırışı ilə əlaqədar olduğu bildirilir.

## BAMF nümayəndə heyəti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində olub

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yanvarın 9-da Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) nümayəndə heyəti ilə görüşüb.

Görüşdə BAMF-nin rəhbəri Umud Mirzəyev Azərbaycanda tolerantlığın ən yüksək formada mövcud olmasından danışıb. O bildirib ki, Azərbaycan multikultural dövlət olduğu üçün ölkəmizdə müxtəlif mədəniyyətləri təmsil edən nümayəndələr vahid ideya ətrafında birləşiblər. Bu sahədə Dövlət Komitəsinin uğurlu fəaliyyətinə toxunan U.Mirzəyev qurumun vətəndaş cəmiyyəti təmsilçiləri ilə əməkdaşlığının perspektivlərindən söhbət açıb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, 2014-cü il Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artması, xarici ölkələrlə əlaqələrinin genişləndirilməsi, dövlətimizin hərbi qüdrətinin artması baxımından ən uğurlu il olub. Həmin ildə dövlət-din münasibətlərində də əsas məsələlər öz həllini tapıb. Ölkədə radikal qrupların öz fikirlərini və ideyalarını yaymaq cəhdləri iflasa uğrayıb.

M.Qurbanlı diqqətə çatdırıb ki, Komitə 2015-ci il üçün böyük bir plan tərtib edib. Bu plan əsasən dövlət-din, dövlət-din-cəmiyyət və cəmiyyətdə fərdlərarası münasibətləri və dini məsələləri, dini icmalar və onların fəaliyyətini, Azərbaycanda dini maarifləndirmə və digər sahələri əhatə edir. Komitə bütün qurumlarla, o cümlədən vətəndaş cəmiyyəti təmsilçiləri ilə Azərbaycanda milli-mənəvi dəyərlərin təbliği üçün birgə tədbirlərin keçirilməsində maraqlıdır. Çünki bu tədbirlərin əsas məqsədi milli adət-ənənələrin qorunmasının təmin olunması və inkişaf etdirilməsindən ibarətdir.



## Bakıda Milad bayramı qeyd edilib

Yanvarın 9-da Bakıda Rus Pravoslav Kilsəsi tərəfindən Milad bayramı münasibətilə tədbir keçirilib.

Rəsmi şəxslərin, Milli Məclisin deputatlarının, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin qatıldıqları tədbirdə çıxış edən Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Aleksandr Milad bayramı münasibətilə təbriklərini çatdırıb. O, belə tədbirlərin artıq ənənəyə çevrildiyini, Azərbaycanda bu bayramın yüksək səviyyədə qeyd edildiyini deyib. Azərbaycanın tolerantlığa görə bütün dünyada nümunə kimi qəbul edildiyini söyləyən Aleksandr ölkəmizdə multikulturalizmin dövlət siyasətinin tərkib hissəsi olduğunu vurğulayıb.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev Prezident İlham Əliyevin Azərbaycanın pravoslav xristian icmasına təbrik məktubunu oxuyub.

Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Aleksandr dövlətimizin başçısına minnətdarlığını bildirib, xalqımıza sülh və əmin-amanlıq arzulayıb.

Sonda Qırmızı qəsəbə Dağ yəhudiləri dini icmasının sədri Boris Simanduyevə "Müqəddəs Apostol Varfolomey" qızıl medalı təqdim edilib.



## Dövlət Komitəsinin sədri Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu ilə görüşüb

**Yanvarın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşeinlə görüşüb.**

Görüş zamanı dini icmanın fəaliyyəti müzakirə olunub. Aleksandr İşein bildirib ki, müxtəlif dinlərin və millətlərin nümayəndələri Azərbaycanda sülh, qarşılıqlı hörmət və həmrəylik şəraitində yaşayırlar. Ümummilli Lider Heydər Əliyevin "Çoxmillətlilik bizim zənginliyimizdir" sözlərini xatırladan A.İşein Azərbaycanda İslamla yanaşı, Xristianlığın və Yəhudiliyin də tarixi köklərinin olduğunu, ölkəmizdə hər kəsin müxtəlif dini bayramları sərbəst şəkildə qeyd etdiyini vurğulayıb.

O bildirib ki, Moskva və Ümumrusiya Patriarxı II Aleksi və Kirillin Azərbaycana səfərləri ölkələrimiz arasında bütün sahələrdəki kimi, din sahəsində də əlaqələrin yüksək səviyyədə olduğuna bariz nümunədir.

Mübariz Qurbanlı dövlətin din sahəsinə göstərdiyi diqqətdən, Komitənin həyata keçirdiyi tədbirlərdən danışıb. O qeyd edib ki, dini icmalara bundan sonra da həm hökumət, həm də Dövlət Komitəsi tərəfindən lazımi dəstək göstəriləcək.



## "Azərbaycanda istənilən dini icmanın azad fəaliyyətinə tam şərait var"

Yanvarın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Bakı dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayevlə görüşüb.

Görüşdə Milix Yevdayev bildirib ki, Azərbaycanda konfessiyalar arasında sülh, dostluq və əməkdaşlıq şəraitinin formalaşması kursunun əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Bu gün həmin kurs bütün xalq, o cümlədən müsəlmanlar, yəhudilər və xristianlar tərəfindən dəstəklənən Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Mübariz Qurbanlı Azərbaycandakı dini konfessiyalara dövlət qayğısından danışaraq bildirib ki, bu gün ölkədə dövlət-din münasibətləri normal məcrada inkişaf edir. Respublikada istənilən dini icmanın azad fəaliyyətinə tam şərait var.

# Dövlət Komitəsinin sədri "Həyat sözü" xristian dini icmasının nümayəndəsini qəbul edib



Yanvarın 23-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İsveçdə fəaliyyət göstərən "Həyat sözü" cəmiyyətinin MDB ölkələri və beynəlxalq xidməti üzrə nümayəndəsi Karl Qustav Severini qəbul edib.

Görüş zamanı qonaq bildirib ki, Bakıya ilk səfəri 1994-cü ildə olub və o zaman Ümummilli Lider Heydər Əliyevlə görüşüb. O tarixi görüşü böyük məmnunluq hissi ilə xatırladan Karl Qustav Severin qeyd edib ki, ötən bu illər ərzində Azərbaycan çox böyük inkişaf yolu keçib. Qonaq vurğulayıb ki, Azərbaycanı ona sevdirən ən vacib məqam burada bütün dini konfessiyaların birgə sülh və əmin-amanlıq şəraitində yaşamalarıdır: "Azərbaycanda tolerantlıq çox yüksək səviyyədədir. Siz bununla fəxr etməli, bu ənənəni qoruyaraq, bir nümunə kimi dünyaya təbliğ etməlisiniz".

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, bütün dinlərin özəyində insanlar arasında bərabərlik, sülh, əmin-amanlıq və ədalət prinsipi dayanır. Əgər dinlər məhz bu yöndən təbliğ olunarsa, bəşəriyyət qarşılaşdığı problemlərin bir çoxundan xilas ola bilər. Dinlərarası dialoq, sülhə çağırış, konfessiyaların birgə fəaliyyəti dünyada sülhün bərqərar olması üçün ən vacib şərtlərdən biridir. Komitə sədri qeyd edib ki, Azərbaycan dünyəvi dövlətdir. Ölkədə hər bir kəsin dini etiqad azadlığı təmin olunub. Eyni zamanda, din daim dövlətin qayğısı və himayəsi altındadır.

Qarşılıqlı hörmət və səmimiyyət şəraitində keçən görüşün sonunda qonaq səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirib.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov APA-ya müsahibə verib

*Səyavuş Heydərov: "İslam ölkələri və İslam dininə qarşı İŞİD vasitəsilə təcavüz siyasəti həyata keçirilir"*



**- Azərbaycanda din dövlətdən ayrıdır. Bununla yanaşı, dövlət bu sahəyə nəzarət edir. Bunun mahiyyətini açıqlaya bilərsinizmi?**

- Elədir. Azərbaycan dünyəvi dövlətdir və Konstitusiyaya əsasən, din dövlətdən ayrıdır. Eyni zamanda hər bir kəs dini inancında sərbəstdir. Onu da bildirim ki, dövlət-din münasibətləri "Dini etiqad azadlığı haqqında" Qanun və digər müvafiq qanunvericilik aktları ilə tənzimlənir. Belə ki, ölkəmizdə vicdan azadlığı yüksək səviyyədə təmin edilməklə, bütün dinlərə bərabərhüquqlu münasibət göstərilməkdədir. Bununla yanaşı, bəzi hallarda bu münasibətdən sui-istifadə edilməklə tarixən formalaşmış milli-mənəvi dəyərlər sisteminə zidd olan ünsürlərin və cərəyanların destruktiv təsirinin, cəmiyyətin həyatına nüfuzetmə cəhdlərinin, xüsusilə dini zəmində ekstremizm və separatizmin yayılmasının qarşısının alınması məqsədilə müvafiq dövlət orqanları mövcud qanunvericilik çərçivəsində zəruri tədbirlər həyata keçirir.

**- Azərbaycan özünün etnik və dini müxtəlifliyi ilə həmişə seçilib. Lakin bəzi hallarda dini fanatizm həddinə çatan radikalizm təzahürləri də müşahidə edilir. Bunun səbəbləri barədə nə deyə bilərsiniz?**

- Tarixən Azərbaycanda bütün xalqların və dinlərin nümayəndələri bir ailə kimi yaşamış və yaşayırlar. Ölkəmizdə milli və ya dini zəmində heç vaxt qarşıdurma olmayıb. Eyni zamanda, Azərbaycanda təəssüf ki, sosial dayaqları və gücü olmayan müəyyən qüvvələrin radikal meyilləri müşahidə edilməkdədir. Bunun səbəblərini sadalamaq üçün 90-cı illərin əvvəllərini xatırlayaq. Belə ki, həmin dövrdə dünyanın mövcud siyasi xəritəsinin dəyişməsi, sosializm düşərgəsinin süquta uğraması, birqütblü dünyaya keçid, habelə ictimai həyatın müxtəlif sahələri ilə bağlı bir sıra problemlərin yaranması dini örtük altında gizlənən radikal yönümlü hərəkatların ölkəyə nüfuz etməsi üçün əlverişli şərait yaratdı. Həmin vaxtlarda ölkədə hökm sürən hakimiyyətsizlik, özbaşınalıq, xaos, xüsusilə ali dövlət rəhbərliyinin səriştəsizliyi bu qüvvələrin ölkəmizə də ayaq açmasına imkan verdi. Eyni zamanda, Ermənistan-Azərbaycan münaqişəsi, məcburi köçkün və qaçqın probleminin meydana çıxması, ideoloji sahədəki boşluqlar, sosial çətinliklərin mövcudluğu, ölkənin humanitar yardıma ehtiyacı və s. bu kimi vəziyyətdən ölkəmizə qarşı siyasi, iqtisadi marağı olan, burada təsir dairəsini genişləndirməyə çalışan bəzi ölkələrin müxtəlif bəhanələr, o cümlədən humanitar missiya adı altında fəaliyyəti Azərbaycan ərazisində qeyri-ənənəvi təriqətlərin, cərəyanların ilk toxumlarının səpilməsinə zəmin yaratdı.

**- Sizcə, hazırda Azərbaycanda radikalizm daxili, yoxsa xarici mənbələrdən qaynaqlanır?**

- Məhz həmin dövrlərdə yuxarıda vurğuladığım "məqsədyönlü fəaliyyət" nəticəsində ölkəmizdə milli-mənəvi dəyərlərimizlə ziddiyyət təşkil edən müəyyən dini baxış və cərəyanların əsası qoyuldu. Təbii ki, din pərdəsi altında gizlənən bu siyasi baxışlar və cərəyanlar, eləcə də milli maraqlarımıza zidd ideologiyalar əsasında formalaşan siyasiləşmiş İslam modellərinin Azərbaycana ixracı prosesi başladı. Həmin modellərin Azərbaycanda tətbiqini həyata keçirəcək "icraçıların" hazırlanması məqsədilə yüzlərlə vətəndaşımız aldadılaraq dini təhsil adı altında həmin ideologiyaların beşiyi olan ölkələrə aparıldılar. Hətta onların bir qismi hərbi təlimlərə cəlb edildi, onlara xüsusi vərdişlər aşılandı. Maraq doğuran odur ki, "dini təhsil" adı altında xarici ölkələrə çıxarılan şəxslərə qeyd olunan təlimlər xüsusi məxfilik şəraitində həyata keçirilirdi. Dolayısıyla, həmin dövrdə xarici qüvvələrin həyata keçirdiyi bu tədbirlər daxili mənbələrin də yaranmasına gətirib çıxardı.

Burada bir məqamı da qeyd etmək istərdim ki, həmin ölkələrdə təhsil alan, lakin neqativ təsirlərə məruz qalmayan, vətənpərvər Azərbaycan vətəndaşları hazırda milli-mənəvi dəyərlərimizə söykənən İslamın təbliği və yayılmasında yaxından iştirak edirlər.

**- Siz İslam dininin siyasiləşdirilməsi məsələsinə toxundunuz. Dini siyasiləşdirən qüvvələr haqqında nə deyə bilərsiniz?**

- Qeyd etdiyimiz kimi, birqütblü dünya yarandıqdan sonra hegemonluq etmək istəyən bəzi dövlətlər öz geosiyasi və geoiqtisadi maraqlarının təmin edilməsi məqsədilə din amilindən geniş istifadə edirlər. Yaxın Şərqdə baş vermiş dini zəmindəki münaqişələr məhz həmin siyasətin acı nəticəsidir. Bu gün "İŞİD" deyilən və İslam dini ilə heç bir əlaqəsi olmayan qruplaşmanın meydana gəlməsi, özünü "dövlət" elan etməsi və bu qruplaşma ilə süni, imitasiya xarakterli mübarizənin nümayiş etdirilməsi baş verənlərin təsadüf olmadığını göstərir. Bu məsələdə acınacaqlı hal ondan ibarətdir ki, İslam ölkələri və İslam dininə qarşı adıçəkilən qruplaşma vasitəsilə sistemli şəkildə təcavüz siyasəti həyata keçirilir. Lakin həmin dövlətlər və dairələr başa düşməlidirlər ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi, bu "yaxşı terrorçular" gələcəkdə həmin ölkələrin təhlükəsizliyi üçün də ciddi təhdidə çevriləcəklər. Bu baxımdan İslam dininin siyasiləşdirilməsi və onun vasitə kimi istifadə olunması yolverilməzdir, olduqca təhlükəlidir.

**- Hazırkı vəziyyətdə dini radikalizmlə mübarizənin səmərəliliyinin artırılması istiqamətində hansı tədbirlər həyata keçirilir?**

- Son dövrlərdə dövlət-din münasibətlərinin milli təhlükəsizlik və milli maraqlar baxımından düzgün istiqamətləndirilməsi məqsədilə mövcud qanunvericilik bazası təkmilləşdirilib, hüquqi aktlara zəruri əlavə və düzəlişlər edilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin səlahiyyətləri artırılmaqla əhali arasında genişmiqyaslı maarifləndirmə, qabaqlayıcı və profilaktik xarakterli tədbirlər keçirilməkdədir. Azərbaycan xalqının əsrlər boyu sahib olduğu milli-mənəvi dəyərlərin qorunub saxlanılması, bu sahədəki mövcud potensialın inkişaf etdirilməsi, vicdan azadlığının təmin olunması, ölkədə dövlət-din münasibətlərinin demokratik əsaslar, ümumbəşəri dəyərlər və dünyəvilik zəminində formalaşdırılması məqsədilə Konsepsiya layihəsi hazırlanıb. Bu Konsepsiyanın əsas elementlərindən biri də cəmiyyətimizdə milli-mənəvi dəyərlərimizi özündə ehtiva edən milli-dini münasibətlər modelinin formalaşdırılmasıdır.

**- Yaxın Şərq ölkələrində dini zəmində baş vermiş münaqişələrin ölkəmizdəki bəzi radikal meyilli şəxslərə təsirinin qarşısının alınması üçün məsləhətiniz nə olardı?**

- Həmin şəxslərə, eləcə də bu məsələdə tərəddüd içində olan vətəndaşlarımıza tövsiyə edərdim ki, iradə nümayiş etdirsinlər, qeyd etdiyim məqamlara diqqət yetirsinlər, İslam dininin nüfuzundan qorxuya düşən və buna görə də onu gözdən salmağa çalışan bəzi siyasi dairələrin "xidmətçilərinə" çevrilməsinlər, milli kimliklərini unutmasınlar, insanlığa təcavüz edənlərə "yox" desinlər. Zaman gələcək, onlar baş verən qlobal xarakterli siyasi oyunların mahiyyətini başa düşəcək və əsl həqiqəti biləcəklər.

# "Tük axtaranlar" və ya Sizə nə lazımdır, xanım Kosman?



**Nicat MƏMMƏDLİ,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr, nəşriyyatvə redaksiya şöbəsinin müdiri*

***Dini etiqad azadlığının insan hüquq və azadlıqları sisteminin fundamental anlayışlarından biri olması şübhəsizdir. Lakin çox təəssüf ki, "din (dinsizlik) azadlığı" tarix boyu dünyanın taleyini öz mənafelərinə uyğun yönəltməyə çalışan güclərin əlində alətə çevrilmişdir. Qüvvələr balansının dəyişdiyi tarixi məqamlarda "dini azlıqların" hüquqlarının müdafiəsini bəhanə edərək digər dövlətlərin daxili işlərinə kobud müdaxilə, hətta beynəlxalq hüquqi müstəvidə humanitar intervensiyaya haqq qazandırmaq səviyyəsinədək çatdırılmışdır.***

Müasir beynəlxalq münasibətlər sisteminin əsasını təşkil edən prinsiplərə görə dövlətlər öz suverenliyinin bir hissəsini ümumbəşəri sülhün və təhlükəsizliyin təmin edilməsi məqsədilə yalnız həmin dövlətlərin qarşılıqlı razılığı və könüllü iradəsi ilə yaradılmış bəzi dövlətüstü qurumlara, xüsusən də beynəlxalq təşkilatlara güzəştə gedirlər. Belə çoxtərəfli razılaşmada iştirak, həmçinin qarşılıqlı öhdəliklər də yaradır ki, iştirakçı dövlətlər həmin öhdəliklərin yerinə yetirilməsində məsuliyyət daşıyırlar. Lakin heç bir uğurlu dövlət öz suverenliyini başqa dövlətə öz iradəsi ilə güzəştə getmir. Buna görə də, hər hansı dövlətin özünə "dünya polisi" haqqını tanıması beynəlxalq birgəyaşayışın fundamental prinsipləri ilə tərs düşür. Hətta bu dövlət ABŞ olsa belə. Təəssüf ki, ABŞ yuxarıda göstərilən bu elementar məntiqi qəbul etmək istəmir. Özünə insan hüquqlarının gözətçisi və başqalarını tənqid edə bilmək hüququ tanıyan ABŞ, həm də beynəlxalq hüququn ən universal və "müqəddəs" sənədlərindən olan "Uşaq hüquqları haqqında Konvensiya"nı ratifikasiya etməyən 3 dövlətdən biridir. Əslində, bu ölkə "Sağlamlıq imkanları məhdud olan şəxslərin hüquqları haqqında BMT Konvensiyası", "İnsan alveri və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı BMT Konvensiyası", "Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında BMT Konvensiyası" və s. kimi onlarla insan hüquqlarına dair beynəlxalq hüquqi aktları ratifikasiya etməməsinə, insanlıq əleyhinə və müharibə cinayətlərinin, həmçinin soyqırımı cinayətinin təqib olunması məqsədilə BMT-nin yaratdığı ən böyük qurum olan Beynəlxalq Cinayət Məhkəməsinə qoşulmamasına görə bütün dünya ictimaiyyətinin tənqid hədəfinə çevrilməlidir.

ABŞ-ın bəzi siyasi dairələrinin sifariş etdiyi musiqini oynayan bir sıra dövlət və qeyri-dövlət qurumları yenə də öz amplualarındadır. Belə qurumlardan biri də ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyasıdır (BDAK). Bu qurum hər il bir neçə ölkədə din azadlığının vəziyyəti ilə bağlı hesabat hazırlayır. 2014-cü ildə BDAK-ın hesabatına düşməkdə "bəxti gətirmiş" dövlətlərin sayı 34 olmuşdur. Azərbaycan da onların sırasındadır. Bu yaxınlarda isə BDAK-ın keçmiş Sovet respublikaları üzrə məsul olan siyasi təhlilçisi Katrin Kosman müsahibə verərək Azərbaycanda din azadlığının vəziyyəti ilə bağlı əsassız, bəzən isə absurd həddə məntiqsiz görünən tənqidi fikirlər səsləndirmişdir. Xanım Kosmanın fikirləri və ümumiyyətlə, BDAK-ın hesabatında Azərbaycanda din azadlığının vəziyyəti ilə bağlı yer almış fikirlər konseptual yoxsulluğu, praktiki uyğunsuzluğu və ən təzadlısı qərəzliliyi ilə xüsusi seçilir.

Xanım Kosmanın ilk "evrika"sı bundan ibarətdir ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu 1992-ci ildə qəbul edildikdən sonra 14 dəfə dəyişdirilmiş, hər dəyişiklik qanunun müddəalarını sərtləşdirmiş və guya insanların din azadlığının məhdudlaşdırılmasına səbəb olmuşdur. Bu iddia istər dövlətin daxili qanunvericilik sisteminin məntiqinə, istərsə də beynəlxalq hüquq prinsiplərinin tarixi dinamikasına münasibətdə yüngül ifadə ilə "tənqid" olduğu üçün çox uğursuz seçilmişdir. Məlumdur ki, istənilən qanun cəmiyyətin inkişafı prosesində təkmilləşməyə məhkumdur. Nəzərə alsaq ki, "Dini etiqad azadlığı haqqında" Qanun Azərbaycanın yenicə müstəqillik əldə etdiyi daxili təbəddülatlar və xarici təhdidlərlə zəngin illərdə effektiv dövlət təcrübəsi olmayan bir ölkədə qəbul edilmişdir, onda bu qanunun xanım Kosmanın dediyi kimi, 14 dəfə deyil, əslində 15 dəfə dəyişdirilməsi tamamilə məntiqidir. Əslində, 22 illik bir dövrdə din kimi dinamik ictimai sferaya aid qanunda daxili ictimai-siyasi dinamika və beynəlxalq çağırışlarla səsləşən dəyişikliklərin edilməməsi tamamilə məntiqsiz görünər və daha ciddi neqativ nəticələr verə bilərdi. Eyni zamanda, din azadlığı ilə bağlı qanunvericilik təkcə bizim ölkəmizdə ciddi dəyişikliklərə uğramamışdır. Zamanın tələblərinə uyğun olaraq bu sahədə həm müxtəlif ölkələrin milli qanunvericiliyində, həm də ümumilikdə bu konsepsiyanın siyasi-hüquqi düşüncə və praktikadakı konseptual mahiyyətində ciddi transformasiyalar yaranmışdır. Din azadlığı konsepsiyasının özü kifayət qədər ziddiyyətli təkamül yolu keçmiş və həlledici tarixi anlarda fundamental şəkildə dəyişdirilmişdir.

XIX əsrdə Osmanlı dövlətinin zəifləməsindən istifadə edən Avropa dövlətləri "din azadlığı" ideyasından növbəti dəfə yararlanmağa çalışdılar. Osmanlı imperiyasında tətbiq edilmiş "millət" idarəetmə sistemi müxtəlif dini qruplara (qeyri-müsəlman) əhəmiyyətli dərəcədə muxtariyyət və özünüidarə hüququ tanımışdır. Lakin 1878-ci ildə imzalanmış Berlin müqaviləsi ilə Avropa dövlətləri "din azadlığı"nı Avropanın yeni meydana gəlmiş dövlətləri üçün az qala mövcudluq şərti kimi təsbit etdilər və həm bu dövlətlərdə, həm də Osmanlı imperiyasında din azadlığının və dini bərabərliyin pozulmasının humanitar intervensiya ilə nəticələnə biləcəyini beynəlxalq hüquq normaları ilə şərtləndirdilər. Bununla da "azlıqların hüquqları" hüququn dominant prinsipinə çevrildi. Bu yanaşmanın konseptual impotentliyi və azlıqların hüquqlarının müdafiəsini təmin edə bilməməsi II Dünya müharibəsində yəhudilərə qarşı törədilmiş soyqırımı ilə sübut olundu.

II Dünya müharibəsindən sonra Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul olunması ilə dünyada fundamental insan hüquqlarının qorunması sahəsində yeni baxışlar ortaya çıxdı ki, bu da insan hüquqlarına universal yanaşmanı əks etdirirdi. Lakin 2001-ci il 11 sentyabr hadisəsi insan hüquqlarına yeni baxışın meydana çıxmasını şərtləndirdi. Dünyanın siyasi düzənində ciddi dəyişikliyə səbəb olmuş bu terror hadisəsinin dini nüanslar daşıdığını nəzərə alsaq, insan hüquqlarına yeni baxışın, xüsusilə din azadlıqlarına yönəlməsi və təsiri də anlaşılandır. Məsələn, elə ABŞ-ın özündə demək olar ki, əksər ekspertlər tərəfindən birmənalı şəkildə insan hüquqlarının dövlət tərəfindən kobud şəkildə məhdudlaşdırılmasına rəvac verən qanun olaraq qiymətləndirilən və hamının "vətənpərvər aktı" kimi tanıdığı "Terrorizmin qarşısını almaq üçün müvafiq vasitələrlə Amerikanın birləşdirilməsi və möhkəmləndirilməsi aktı" qəbul edildi. Bu qanunvericilik aktı ABŞ vətəndaşlarının özəl həyatlarına xəbərdarlıq edilmədən müdaxilə ilə yanaşı, insanın ən ali təbii hüquqi olan azadlıq hüququnun da kobud şəkildə pozulması üçün şərait yaratdı. Belə ki, həmin qanuna əsasən terrorda şübhəli bilinən hər hansı ABŞ vətəndaşı olmayan şəxs məhkəmə olmadan "terrorla müharibə başa çatanadək", daha doğrusu isə qeyri-müəyyən müddətə qədər həbsdə saxlanıla bilər.

ABŞ hökuməti qanunun sərtləşdirilməsini və insan hüquqlarının məhdudlaşdırılmasını terrorizmin qarşısının alınması və milli maraqların təmin olunması vasitəsi kimi təqdim edir. Deməli, milli maraqlara təhdidlər və beynəlxalq terrorizm təhlükəsi ABŞ qanunvericiliyinin ən sərt şəkildə dəyişdirilməsi üçün əsas ola bilir.

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş düzəlişlər ölkədaxili ictimai dəyişiklikləri əks etdirməklə yanaşı, müasir dünyada artan və potensial təhlükə mənbəyinə çevrilən radikalizm meyillərinin önlənməsi məqsədi daşıyır. Bir çox dəyişikliklər isə sözügedən qanunun dünya praktikasındakı mövcud meyilləri əks etdirməsi zərurətindən doğur. Məsələn, BDAK-ın xüsusi tənqidlə yanaşdığı məsələlərdən biri, qanunda dini icmaların qeydiyyatdan keçməsi üçün zəruri üzvlərin sayının 50 nəfərə qaldırılmasıdır. Məsələnin paradoksal tərəfi ondadır ki, hətta bu dəyişiklikdən sonra belə, Azərbaycan qanunvericiliyi bu sahədə dünyanın bir çox demokratiya beşiyi sayılan ölkələrindən irəlidədir. Məsələn, Belçikada dini icmanın qeydiyyatı üçün 10 000, Avstriyada 300, Polşada 100 nəfər, Almaniyada əyalət əhalisinin 0,1 faizi, Rumıniyada isə bütün ölkə əhalisinin 0,1 faizinin üzvlüyü zəruridir. Nədənsə adı BDAK tərəfindən dini etiqad azadlığının pozulduğu 34 ölkə sırasında çəkilməyən Ermənistanda isə qanunvericiliyin tələbinə əsasən, dini icma 100 nəfər üzvü olduğu halda qeydiyyat üçün müraciət edə bilər. Göründüyü kimi, Azərbaycanda dini icmaların qeydiyyatdan keçməsi üçün zəruri üzvlərin sayının Avropa ölkələrindəkinə nisbətən dəfələrlə aşağı olmasına baxmayaraq, xanım Kosmanın və onun mənsub olduğu BDAK-ın tənqidinə məhz bizim ölkəmiz tuş gəlir.

Nədənsə BDAK dövlət məktəblərində hicabı qadağan etmiş Fransa, Belçika, Almaniya və İsveçrə kimi ölkələri din azadlığı ilə bağlı vəziyyətin xüsusi narahatlıq doğurduğu dövlətlər siyahısına aid etmir. Fransada hicabın təkcə dövlət məktəblərində deyil, hətta universitetlərdə də qadağan edilməsi, Fransa və Belçikada niqabın ictimai yerlərdə tamamilə yasaqlanması, Avropa İttifaqı üzvləri olan Lüksemburqda və İsveçdə, həmçinin İsveçrə, Norveç, İslandiya və Polşada dini qurbanların kəsilməsinə tətbiq edilən məhdudiyyətlər Katrin Kosmanın onları tənqid etmək, BDAK-ı isə həmin ölkələri din azadlığının pozulduğu 34 dövlətin sırasına əlavə etmək üçün əsas deyil. Belə ikili standartların açıq-aşkar institusional tətbiqi azmış kimi, xanım Kosman guya Azərbaycanda universitetlərdə hicaba qadağalar qoyulması barədə ağ yalan səsləndirməkdən də çəkinməmişdir.

Ölkəmizdə dini durumun tamamilə yanlış interpretasiyası və mövcud faktlara qərəzli yanaşma xanım Kosmanın sərgilədiyi mövqeni hələ tam açmır. O, həmçinin alogizmin apogeyi sayıla biləcək təhlili nəticələr də çıxarır. Guya Azərbaycanda iddia olunan məhdudiyyətlərin səbəbi ölkənin siyasi dairələrinin dini fəaliyyəti təhdid kimi qiymətləndirmələridir.

Birincisi, Azərbaycanda ictimai-siyasi vəziyyətə az-çox bələd olan hər kəsə yaxşı məlumdur ki, ölkəmiz siyasi İslamın sosial dayaqlardan məhrum olduğu nadir müsəlman ölkələrindən biridir. Ümumiyyətlə, Azərbaycanda siyasiləşmiş və mövcud siyasi oyun qaydalarını pozmaq niyyətində olan antisistem dini qruplaşmaları mövcud deyildir.

İkincisi, bu gün Azərbaycan dövlətinin qarşısına qoyduğu əsas məqsədlərdən biri dini və etnik dözümlülüyə, bərabərhüquqlu birgəyaşayışa əsaslanan, yüzilliklər ərzində formalaşmış zəngin mənəvi mədəniyyəti qoruyub saxlamaq və gələcək nəsillərə ötürməkdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdəki dinlər və etnik qruplar arasındakı münasibətlər Ümummilli Liderimiz Heydər Əliyevin dövlətçilik konsepsiyasına uyğun olaraq daha da möhkəmlənmiş, bu sahə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Təkcə bir faktı qeyd edim ki, Sovet dövründə respublikada cəmi 17 məscid fəaliyyət göstərdiyi halda hazırda bu rəqəm 2 mini keçmişdir.

Ümummilli Lider Heydər Əliyevin alternativsiz siyasi xəttini uğurla və

⇨ 11

# "Tük axtaranlar" və ya Sizə nə lazımdır, xanım Kosman?

10 ⇦ uzaqgörənliklə həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hazırda ölkədə dini etiqad azadlığının və multi-mədəni harmoniyanın təminatçısı və himayədarı olduğu xüsusi qeyd edilməlidir. Onun böyük tarixə malik dini məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlər həyata keçirməsi dövlətimizin məqsədyönlü siyasətinin tərkib hissəsidir. Azərbaycanda İslam dini ilə bağlı tarixi abidələr, məscid və ziyarətgahlarla bərabər, xristian və iudaizm məbədlərinin tikintisi və bərpası bütün dünyaya nümunə göstəriləcək həqiqətdir.

Qeyd edim ki, cənab Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi ilk on ildə - 2003-2013-cü illərdə 136 məscid inşa olunmuş, 200-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılmış, o cümlədən dövlət vəsaiti hesabına 10 məscid tikilmiş və ya əsaslı bərpa olunmuşdur. Bunlarla yanaşı, 2008-ci ildə Bakıda katolik kilsəsinin açılışı olmuş, 2011-ci ildə şəhərin mərkəzində Dağ yəhudiləri üçün dövlət hesabına sinaqoq inşa edilmiş, ölkədəki əksər kilsə və sinaqoqlarda dövlət hesabına bərpa işləri həyata keçirilmişdir. Hazırda ölkədə 2 mindən çox məscid, 13 kilsə və 6 sinaqoq fəaliyyət göstərir.

Bu sahədə UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ardıcıl və təqdirəlayiq fəaliyyətinin də xüsusi rolu var. Milli-mənəvi dəyərlərimizin qorunmasına, tarixi-mədəni abidələrimizin bərpasına böyük önəm verən Fondun bir sıra məscid və ziyarətgahları bərpa və təmir etməklə yanaşı, xristian və yəhudi abidələrinin bərpasına xüsusi diqqət yetirməsi təqdirəlayiq haldır.

Məhz Azərbaycan Respublikasının siyasi rəhbərliyinin iradəsi ilə hər il dini icmaların inkişafı üçün 2,5 milyon manat pul vəsaiti ayrılır. Halbuki dünyəvi demokratik dövlətlərin əksəriyyətində belə praktika yoxdur.

Eyni zamanda, nəzərə alınmalıdır ki, dinlərarası və mədəniyyətlərarası dialoqa nail olmaq üçün bu sahədə nümunəvi ölkələrin tarixi təcrübəsinin beynəlxalq təşkilatlar səviyyəsində öyrənilməsi və təbliğ edilməsi zəruridir. Yeri gəlmişkən, Azərbaycanın zəngin təcrübəsinin yayılması ideyası təkcə azərbaycanlıların yox, həm də beynəlxalq təşkilatların nümayəndələrinin, diplomatların və nüfuzlu din xadimlərinin ümumi təşəbbüsüdür. Bakıda katolik kilsəsinin açılışında iştirak etmiş Vatikanın dövlət katibi Tarçizio Bertoninin "Azərbaycan Avropaya təkcə neft, qaz yox, həm də tolerantlıq ixrac etməlidir" fikri bunun bariz nümunəsidir. Və yaxud ATƏT-in İnsan Hüquqları və Demokratik Təsisatlar Bürosunun keçmiş rəhbəri Jerar Ştutdmanın Azərbaycanın tarixi təcrübəsinə münasibəti bizim üçün qürurverici faktdır. O deyir ki, "Azərbaycanda dini dözümlülük heç də yeni konsepsiya deyildir. Bu ölkə yüz illər boyunca müxtəlif mədəniyyətlərin yanaşı yaşamasına, dözümlülüyə bariz nümunə ola bilər. Biz onu ümumi mədəni irsimizə münasibətdə nümunə göstərə bilərik".

Qeyd edilənlərdən belə nəticəyə gəlinir ki, Azərbaycanda dinin təhdid faktoru kimi siyasi iradəyə qarşı qoyulması yalnız xanım Kosmanın təxəyyülünün məhsuludur.

Katrin Kosmanın orakulluq edərək təhdid dolu mesajlar verməsi onun müsahibəsinin əsl mahiyyətini ortaya qoyur. Onun iddialarına görə, dini azadlıqlara tətbiq olunmuş məhdudiyyətlər guya Azərbaycanda şiələrin və sünnilərin bəzi nümayəndələrinin ekstremist fəaliyyətlərinə yol aça bilər. Bu gün dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən radikal dini qruplaşmaların arxasında böyük güclərin dayanması ən müxtəlif səviyyələrdə səsləndirilməkdədir. Xanım Kosmanın bu cür analitik sayıqlamaları ya hansısa qüvvələrə Azərbaycanı hədəf kimi göstərmək, ya da bədbin gələcəyin təşkilatçıları rolunu üzərlərinə götürməklə kimlərəsə hədə-qorxu gəlmək məqsədi daşıyır. Lakin xanım Kosman və onun mənsub olduğu BDAK başa düşməlidir ki, Azərbaycanda müxtəlif dinlərin və məzhəblərin anlaşma şəraitində birgəyaşayışı zamanın sınağından çıxmışdır.

## Şeyxülislam Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyində olub



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfirliyində olub.

O, iki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Abdullah bin Əbdüləziz Al Səudun vəfatı ilə əlaqədar başsağlığı verib, matəm kitabına ürək sözlərini yazıb.

Şeyxülislam səfirliyin əməkdaşları ilə görüşüb, mərhum kralla görüşlərini xatırladıb, onun iki ölkə arasında əlaqələrin inkişafında xidmətlərini qeyd edib.

## Britaniya "Dağlıq Qarabağ respublikası"nı tanımır

**Britaniya parlamentində lord Con Teylor Kilkluninin sualını cavablandıran bu ölkənin Xarici İşlər Nazirliyinin dövlət məsələləri üzrə naziri Baronessa Anelay deyib ki, Böyük Britaniya hökuməti "Dağlıq Qarabağ respublikası"nı tanımır.**

Lord Kilkluninin sualı işğal olunmuş Azərbaycan torpaqlarında qohumlarının məzarlarını ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüş iki azərbaycanlı mülki şəxsin - Şahbaz Quliyevin və Dilqəm Əsgərovun taleyi ilə bağlı olub.

Baronessa Anelay vurğulayıb ki, Britaniya hökuməti "Dağlıq Qarabağ respublikası" nı tanımamaqla yanaşı, sualda qeyd edilən "məhkəmə icraatının hüquqi bazası"nı da tanımır.

Dövlət məsələləri üzrə nazir Böyük Britaniya hökumətinin həmin girovların taleyi məsələsini Beynəlxalq Qırmızı Xaç Komitəsi qarşısında da qaldırdığını söyləyib.

## Əbu-Dabidə 1250 nəfərlik pravoslav məbədi tikiləcək



"GREEKREPORTER.com" saytının verdiyi xəbərə görə, Əbu-Dabinin Mussafah rayonunda pravoslav kilsəsi inşa ediləcək.

BƏƏ-nin ən böyük əmirliyi olan Əbu-Dabidə hazırda siyahıya alınmış 700 pravoslav ailəsi yaşayır. Ancaq gələcək məbədin baş keşişi Stefan Neaymehin verdiyi məlumata əsasən, paytaxtda qeydə alınmamış azı 300 pravoslav ailə də var.

Mussafah rayonunda yerləşən və pravoslav icmasının ixtiyarında olan hazırkı Müqəddəs Nikolay kilsəsi çox balaca olduğundan, oraya ancaq 300 nəfər yerləşə bilir. İnsanlar ibadətə ya kilsənin çölündə dayanaraq, ya da ibadətin yayınlandığı ekran yerləşdirilmiş qonşu tikilidən qatılırlar.

"Pasxa və Milad bayramlarında biz həmişə yer çatışmazlığından əziyyət çəkirik", - deyə keşiş Stefan Neaymeh şikayət edib.

## Türkiyədə pravoslav məbədi satışa çıxarılıb

Türkiyənin Kayseri şəhərində XVIII əsrdə tikilmiş yunan pravoslav kilsəsi ölkənin daşınmaz əmlakın satışı ilə məşğul olan məşhur internet saytlarından birində satışa çıxarılıb. Bu barədə "Anadolu" agentliyi məlumat verib.



Daşınmaz əmlakın alqı-satqısı ilə məşğul olan Ömər Sicimoğlu tərk edilmiş kilsəni 2013-cü ildə alıb. Onun sözlərinə görə, kilsə çox maraqlı və mühüm mədəni obyektdir və mütləq bərpa edilməlidir. "İstəyirəm ki, onu bərpa edə biləcək şəxs satın alsın", - deyə Sicimoğlu bildirib.

Satıcı saytda yerləşdirdiyi elanda məbədin qiymətini 450 min avro göstərib.

## Vatikan "Ebola" ilə mübarizəyə 3 milyon avro ayırdı



Papa hökuməti Afrikada ağır fəsadlara səbəb olan "Ebola" virusu ilə mübarizəyə 3 milyon avro vəsait ayırıb. Bununla yanaşı, Vatikan radiosunun verdiyi xəbərə görə, Müqəddəs Taxt-Tac "Ebola"nın yaratdığı böhrana vaxtında cavab verdiyi üçün Qvineya, Liberiya və Syerra-Leonun yerli katolik kilsələrinə dərin minnətdarlığını bildirib.

Müqəddəs Taxt-Tacın ayırdığı vəsait əsas etibarilə Kilsənin himayəsində olan strukturlar üçün səhiyyə müəssisələrinin xidmətini yaxşılaşdırmaq, xəstələrin və tibbi personalın qayğısına qalmaq üçün nəzərdə tutulub. Vatikan digər şəxsi və ictimai xeyriyyəçiləri də həmin bölgələrdə əziyyət çəkənlərə həmrəylik xatirinə ianələrin miqdarını artırmağa çağırıb. Bundan başqa, Vatikanın ayırdığı vəsait zəruri dərmanların alınmasına, xəstələrin daşınmasına və artıq mövcud olan strukturların yenilənməsinə sərf olunacaq.

## Arxeoloqlar İsa Məsihin məhkəməsi baş tutan yeri tapıblar



"The Washington Post"-un məlumatına görə, Qüds şəhərində aparılan qazıntı işləri zamanı arxeoloqlar Həzrət İsanın (ə) məhkəməsinin keçirildiyini zənn etdikləri binanın qalıqlarını tapıblar.

İsrail alimləri qalıqları təsadüfən aşkar ediblər. Onların ilkin məqsədi "Davud qalası" muzeyinin genişləndirilməsi ilə əlaqədar torpağı yoxlamaq olub.

Arxeoloqlar tapdıqları fraqmentlər əsasında binanın çar İrodun sarayı və Ponti Pilatın yaşadığı yer olduğunu ehtimalını da irəli sürürlər.

# "The Hill" qəzeti: "Azərbaycan tolerantlıq və multikulturalizm ölkəsidir"

Amerikada çıxan "The Hill" qəzetində beynəlxalq münasibətlər sahəsində ekspert Arye Qutun "Azərbaycan tolerantlıq və multikulturalizm ölkəsidir" sərlövhəli məqaləsi dərc edilib (http://thehill.com/blogs/congress-blog/foreign-policy/230293-azerbaijan-tolerance-and-multiculturalism).

Müəllif yazır ki, Azərbaycanda dini tolerantlıq barədə çox danışırlar. ABŞ-ın dünya ölkələrində dini etiqad azadlığı üzrə komissiyası isə məlum olmayan səbəblərə görə, Azərbaycanda və Qazaxıstanda dini etiqadla bağlı vəziyyətdən narahatdır.

Arye Qut vurğulayır: "Qəribədir, bu komissiyanın analitikləri israr edirlər ki, dövlətlər radikal dini ekstremistlər və radikal ideologiyalar üçün


THE HILL TRENDING: Abortion | Hillary Clinton | American Sniper SPONSORED: Empowering People's Financial Lives

NEWS | POLICY | REGULATION | BLOGS | BUSINESS | CAMPAIGN | OPINION | CONTRIB

HOME | BLOGS | CONGRESS BLOG | FOREIGN POLICY

CONGRESS BLOG
THE HILL'S FORUM FOR LAWMAKERS AND POLICY PROFESSIONALS

Congress Blog | Congress Blog feed

January 22, 2015, 05:00 pm

Azerbaijan: Tolerance and multiculturalism

By Arye Gut

COMMENTS 7

Much is made about religious tolerance in the Republic of Azerbaijan. Even the vaguely identified and little-known U.S.Commission of International Religious Freedom (USCIRF) inexplicably seems concerned of all countries with Azerbaijan and Kazakhstan. Amazingly and apparently oblivious to the events unfolding around the world, USCRIF analysts seem to insist that radical religious extremists shouldn't be confronted and that no state should act against radical ideologies.

Apparently, following the USCIRF logic even the speeches made very recently by European leaders, including British PM Cameron at the White House, or the actions by French and Belgian police should be censured by the Commission. This reflects not only the absence of coordination

maneələr yaratmamalıdırlar".

Arye Qut Azərbaycan əhalisinin dini tərkibi barədə məlumat verərək qeyd edir ki, respublika əhalisinin əksəriyyətini şiələr təşkil etməsinə baxmayaraq, Azərbaycan həm də müxtəlif dinlərin, etnik qrupların nümayəndələri üçün vətəndir. Milli azlıqlara hörmət və tolerantlıq ən qədim zamanlardan, böyük İpək Yolu dövründən günümüzədək bu ölkənin inkişafının əsasını təşkil edib. Respublika dövlət müstəqilliyini bərpa edəndən sonra Azərbaycan hökumətində yüksək vəzifələr tutan milli azlıqların nümayəndələrinin və qadınların sayı xeyli artıb.

A.Qut yazır ki, Sovet İttifaqı dağılan dövrdə baş verən hadisələr Azərbaycanda dini və milli tolerantlıq ənənələri üçün ən ciddi sınaq oldu. Həmin dövrdə Azərbaycan ərazisinin 20 faizini işğal edən ermənilər etnik təmizləmə siyasəti həyata keçirərək Azərbaycanda bir milyon məcburi köçkün problemi yaratdılar. Dinc əhalinin qətlə yetirilməsinə və doğma yurdlarından qovulmasına baxmayaraq, dinc yanaşı yaşamaq prinsipi Azərbaycan cəmiyyətinin səciyyəvi cəhəti olaraq qalıb. Hətta Dağlıq Qarabağda müharibə başlayandan 20 il sonra da Azərbaycan cəmiyyəti dini və etnik qruplar arasında harmoniyanı dəstəkləməkdə davam edir.

Azərbaycanda doğulmuş və hazırda İsrail vətəndaşı olan müəllif bu məqalədə daha sonra Azərbaycanda müsəlmanların və yəhudilərin nümunəvi birgəyaşayışından söhbət açır. O qeyd edir ki, Azərbaycan rəhbərliyi ölkənin yəhudi icmasını dəstəkləyir. Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə ölkədə iki sinaqoq və Cənubi Qafqazda ən iri yəhudi təhsil mərkəzi inşa edilib. A.Qut yazır ki, regionda ilk yəhudi muzeyinin inşası da planlaşdırılır.

Azərbaycanın Quba rayonunda yerləşən və İsrail hüdudlarından kənarda yeganə yəhudi məskəni hesab edilən Qırmızı Qəsəbə Azərbaycanın fəxridir. Qubada müsəlmanlarla yəhudiləri bağlayan bir amil də 1918-1919-cu illərin faciəli hadisələridir. O vaxt erməni millətçi "Daşnaksütyun" partiyasının üzvləri minlərlə dinc yəhudiyə və azərbaycanlıya divan tutmuşdu.

Arye Qut sonda yazır ki, Azərbaycanda yəhudilərin azadlığına və tolerantlığına göstərilən qayğı sayəsində Prezident İlham Əliyev İsrail cəmiyyətində haqlı olaraq dərin hörmət qazanıb.

# "Azərbaycanda vicdan azadlığına böyük qayğı ilə yanaşılır"

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyasının ikinci günündə deputatlar Avropada və dünyada baş verən siyasi hadisələr, insan haqları və demokratik dəyərlərlə bağlı müzakirələr aparıblar.**

Müzakirələr zamanı dinlərarası və mədəniyyətlərarası dialoqun vacibliyindən danışan Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Aydın Abbasov bildirib ki, müasir dünyamızı yalnız dünyanın siyasi xəritəsinin dəyişdirilməsi ilə deyil, ictimai həyatla bağlı bir sıra qlobal problemlərin yaranması və kəskinləşməsi ilə də səciyyələndirə bilərik. İqtisadi, ekoloji və demoqrafik problemlərlə yanaşı, dini problemlər də kəskin şəkildə ortaya çıxır. Hərçənd bəzi separatçı qruplaşmalar çox vaxt terror əməllərinə haqq qazandırmaq məqsədilə din amilindən istifadə edirlər. Belə şəraitdə mədəni müxtəlifliyin, sivilizasiyanın qorunması məqsədilə mədəniyyətlərarası və dinlərarası dialoqun yaradılması olduqca aktualdır. Tolerantlıq və dini dözümlülük ənənələrinin güclü olduğu ölkə və regionların təcrübəsi bu mənada örnək ola bilər. Azərbaycan bir çox xalqların və dini icmaların birgə yaşadıqları, əməkdaşlıq ənənələrinə malik olduqları belə ölkələrdəndir. Azərbaycanın dinlərarası dialoqun və əməkdaşlığın möhkəmləndirilməsindəki təcrübəsi uğurlu nümunə kimi qəbul olunub və çox yüksək qiymətə layiq görülüb. 2002-ci ilin mayında Roma Papası II İohan Pavel Azərbaycana tarixi səfəri zamanı ölkəmizdə dini dözümlülük ənənəsini yüksək qiymətləndirib. Azərbaycanda vicdan azadlığı məsələsinə böyük qayğı ilə yanaşılır. Müxtəlif dini icmaların yalnız hüquqi təhlükəsizliyi deyil, eyni zamanda, mənəvi dəyərləri də qorunur.

Qeyd edilib ki, fərqli dini məzhəblərin siyasiləşdirilməsi, iqtisadi problemlərin həllində onlardan istifadə edilməsi xalqlar arasında böyük uçurum yarada bilər və bu zaman dialoq da qeyri-mümkün olacaq.

Bu gün əsas səylər müxtəlif dini icmalar arasında birgə tədbirlərin keçirilməsinə yönəldilməlidir. Dinlər arasında baş verən qarşıdurmalar haqda hər hansı lazımsız ictimai müzakirələrə yol verilməməlidir.



# Holokost və Xocalı unudulmur



Yanvarın 27-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və Bakı Slavyan Universitetinin (BSU) birgə təşkilatçılığı ilə "Holokost və Xocalı müasirlərin gözü ilə" mövzusunda "dəyirmi masa" keçirilib.

Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, beynəlxalq təşkilatların nümayəndələri, yerli və xarici ölkə alimləri iştirak ediblər.

Əvvəlcə Holokost və Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

"Dəyirmi masa"nın moderatoru, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru, professor Azad Məmmədov bildirib ki, tədbir bəşər tarixinin ən dəhşətli faciələrindən olan Holokost soyqırımının nəticələrindən bir daha ibrət götürülməsi məqsədilə keçirilir. Holokost dünyada beynəlxalq cinayət aktı kimi tanınıb. 2005-ci ildən bəri hər il yanvarın 27-si BMT Baş Assambleyası tərəfindən Beynəlxalq Holokost Qurbanlarının Anım Günü kimi qeyd edilir.

Tədbirdə BSU-nun rektoru, professor Asif Hacıyev qeyd edib ki, ötən əsrin ən dəhşətli hadisələrindən olan Holokost və Xocalı soyqırımları əslində bəşəriyyətə qarşı törədilmiş qanlı cinayətdir. Holokost faciəsi zamanı etnik mənsubiyyətinə görə milyonlarla yəhudi qətlə yetirilib, xüsusi qəddarlıqla, işgəncələrlə öldürülüb. Xocalıda da yerli əhali məhz azərbaycanlı olduğuna görə amansız qətliama, işgəncələrə məruz qalıb. Bu hadisələrdən nəticə çıxarmaq lazımdır. Müasir Azərbaycanda Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş dövlət siyasətinin mühüm bir hissəsi ölkəmizdə yaşayan bütün xalqların bərabərliyi, həmrəyliyi, onlar üçün eyni imkanların yaradılması prinsipləri üzərində qurulub. Azərbaycan dövlətinin siyasəti milli məsələlərə, multikultural mühitin inkişafına xüsusi dəyər, diqqət verməsi ilə seçilir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ölkədə multikulturalizmin inkişafına dövlət tərəfindən böyük diqqət göstərilməsinin parlaq nümunəsidir. Azərbaycanda yaşayan bir çox xalqların nümayəndələri ilə yanaşı, yəhudilər də ölkənin tamhüquqlu vətəndaşları kimi onun müdafiəsində, iqtisadiyyatının inkişafında yaxından iştirak edirlər.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Akko şəhərinin meri Şimon Lankri ölkəmizin böyük nailiyyətlər qazandığını, sürətlə inkişaf etdiyini vurğulayıb. Multikulturalizmin Azərbaycanda həyat tərzinə çevrildiyini qeyd edən israilli qonaq bildirib ki, bu cür tolerantlıq bütün dünyada bərqərar olsa, onda Holokost faciəsi kimi dəhşətli hadisələr bir daha baş verməz.

Milli Məclisin deputatı Yevda Abramov vurğulayıb ki, Holokost və Xocalı soyqırımları iki xalqın başına gətirilən dəhşətli müsibətlərdir. Lakin təəssüf ki, Holokostdan fərqli olaraq Xocalı faciəsini dünya ictimaiyyəti bu günədək tanımır.

Daha sonra Azərbaycan dağ yəhudiləri icmasının mətbuat katibi Murad Salmanovun "Holokost azərbaycanlıların gözü ilə", İsrailli tədqiqatçı Arye Qutun "Xocalı israillilərin gözü ilə", Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları İnstitutunun əməkdaşı Moisey Bekkerin "Azərbaycanda yəhudi icması: tarix və çağdaş reallıqlar", Bakı Slavyan Universitetinin dosenti Sadir Məmmədovun "Holokost soyqırımı və Xocalı faciəsi" mövzularında məruzələri dinlənilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Müzakirələrdə çıxış edənlər bildiriblər ki, Holokost və Xocalı faciələrinin ən ibrətamiz dərslərindən biri kimi, müasir dünyada kütləvi nifrət aşılayan antisemitizm, irqçilik, ksenofobiya, islamofobiyanın qarşısının alınmasında multikulturalizm dəyərlərinin dövlət və vətəndaş cəmiyyəti qurumları tərəfindən təşviq edilməsi mühüm əhəmiyyət kəsb edir.

## İsraildə Azərbaycan Evinin inşasına bir milyon dollar ayırılıb

Yəhudi Xəbər Agentliyi (YXA) İsrailin Akko şəhərinin meri Şimon Lankrinin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəvəti ilə Azərbaycana səfərinə həsr olunmuş material yayıb.

Məqalədə qeyd edilir ki, bu, Akko merinin Bakıya ilk səfəridir. İsrailin Bakıdakı diplomatik missiyasında YXA müxbirinə deyiblər: "Ümid edirik ki, Şimon Lankrinin Azərbaycanda keçirdiyi görüşlər, apardığı danışıqlar İsrail ilə Azərbaycan arasında əlaqələrin daha da genişlənməsinə və möhkəmlənməsinə xidmət edəcək".

Merin səfər proqramı çox zəngindir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən YXA-ya verilən məlumata görə, Akkoda Heydər Əliyev adına Azərbaycan Evinin və "Tikvateynu – Bizim ümidimiz" adlı İrs Evinin açılışı layihəsinin müzakirəsi Azərbaycan-İsrail danışıqlarının mühüm tərkib hissəsi olmalıdır.

Şəhər meri bu layihənin həyata keçirilməsi üçün bir milyon dollardan artıq vəsait ayırıb. Bu layihə Akkodakı Azərbaycan Dağ Yəhudiləri İcmasının və dağ yəhudilərinin beynəlxalq STMEQİ fondunun maliyyə dəstəyi ilə həyata keçiriləcək. Xatırladaq ki, STMEQİ fondunun rəhbəri məşhur mesenat German Zaxaryevdir.

## *İspaniyadan Türkiyəyə dəstək*



İspaniyanın xarici işlər naziri Türkiyənin Yaxın Şərqdəki münaqişələrin nizamlanması istiqamətində göstərdiyi səylərini, Suriya və İraqdan gələn 100 minlərlə qaçqının qəbul edilməsində vacib rolunu yüksək qiymətləndirdiyini bildirib.

İspaniya Türkiyəni İŞİD-ə, əsasən də "əcnəbi yaraqlılara" qarşı mübarizədə ikitərəfli əməkdaşlığı gücləndirməyə çağırıb. Bu barədə yanvarın 28-də Madriddə Türkiyənin Avropa İttifaqı ilə iş üzrə naziri Volkan Bozkır ilə görüşən İspaniyanın xarici işlər və əməkdaşlıq naziri Xose Manuel Qarsiya-Marqalo bəyanat verib.

Nazirlər, həmçinin iki ölkə arasında ticarət və iqtisadi əməkdaşlığı, o cümlədən Orta Asiya və digər regionlarda müştərək layihələrin həyata keçirilməsinin perspektivlərini müzakirə ediblər.

Qarsiya-Marqalo İspaniya hökumətinin Türkiyənin Avropa İttifaqına daxil olması istiqamətindəki səylərini dəstəklədiyini və bu təşəbbüsün irəliləyişinə nail olmaq üçün əlindən gələni edəcəyini vurğulayıb.

# Dünəndən bu günə Bakı İslam Universiteti



İslam dini təhsilə və elmə böyük dəyər verir. Təsadüfi deyil ki, Müqəddəs Kitabımız "Oxu!" sözü ilə başlayır. Elə həmin vaxtdan müsəlmanlar üçün bilik, elm əldə etmək fərz sayıldı. O dövrdəki ağır şərtlərə baxmayaraq, Peyğəmbərimiz (s) tərəfindən təhsilə və elmə xüsusi diqqət ayrılmış, təhsil almağı ibadət etmək dərəcəsinə yüksəltmişdir. O, alim qələminin mürəkkəbini şəhid qanına bərabər tutmuşdur. "Beşikdən qəbirədək elm öyrənin" məşhur kəlamı İslamın elmə, biliyə verdiyi qiymətin göstəricisidir.

Azərbaycanda ali dini təhsilin inkişafına özünəməxsus, sanballı töhfələr vermiş Bakı İslam Universitetinin cəmiyyətimizin düzgün dini maarifləndirilməsində mühüm xidmətləri vardır. Bütün Qafqazın Şeyxi, Şeyxülislam Allahşükür Paşazadənin təşəbbüsü ilə fəaliyyətini sürdürən və respublikamızda yeganə ali dini təhsil müəssisəsi olan Bakı İslam Universiteti yaranandan Azərbaycanın mənafeyinə və xalqımıza layiqli xidmət etməklə tanınmaqdadır.

Universitet mövcud olduğu dövr ərzində şərəfli yol keçmiş, öz elmi-pedaqoji potensialını qoruyub saxlayaraq ölkəmizin ali təhsil sistemində layiqli yerini almışdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Universitet cəmiyyətdə sabitliyi yaratmaq istiqamətində xeyli işlər görərək öz suveren hüquqlarını gerçəkləşdirən ölkəmizin bir çox mühüm sahələrinin yüksək ixtisaslı kadrlarla təmin olunmasına böyük əmək sərf etmişdir.

Universitet öz fəaliyyətində ümumi istiqamət kimi hər zaman müstəqil Azərbaycan Respublikasının müvafiq qərar və göstərişlərini, Təhsil Nazirliyinin təlimatlarını və Qafqaz Müsəlmanları İdarəsinin tövsiyələrini diqqətdə saxlamışdır. Bu gün Bakı İslam Universitetində elmi-pedaqoji təminatın yaxşılaşdırılması, çoxsaylı fənn proqramlarının, metodik göstərişlərin, dərsliklərin, vəsaitlərin hazırlanması, mühüm elmi-tədqiqat işlərinin yüksək səviyyədə görülməsi təhsil müəssisəsinin uzun müddət apardığı səmərəli fəaliyyətin nəticəsidir.

Dərsdənkənar məşğələlərə, elmi müzakirələrə böyük əhəmiyyət verilən Bakı İslam Universitetində səmimi, gözəl ab-hava hökm sürür, milli və dini bayramlarla yanaşı, rəsmi günlər və dövlət bayramlarına da böyük əhəmiyyət verilir və kollektiv tərəfindən xüsusilə qeyd olunur. Müəllimlər yalnız ayrı-ayrı fənləri öyrətməklə kifayətlənmir, həm də tələbələrin dini-elmi dünyagörüşünün, şəxsiyyətinin formalaşmasında mühüm rol oynayırlar.

Universitet xalqımızın milli-mənəvi və əxlaqi dəyərlərinə yiyələnən gəncləri tərbiyə etməklə yanaşı, son zamanlar istər dini, istərsə də dünyəvi təhsil sahəsində təşəbbüskarlığı, apardığı islahatlar, ölkəmizin ictimai-dini həyatında və sosial inkişafında göstərdiyi fəallıq, yeni mütərəqqi tədris texnologiyalarının tətbiqi, beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində bir sıra dəyişikliklərlə nəinki ölkəmizdə, hətta onun hüdudlarından kənarda da layiqli təhsil ocağı kimi özünü təsdiq etmişdir.

Bu gün BİU bir çox ölkələrdə fəaliyyət göstərən ali dini təhsil müəssisələri və dini tədris mərkəzləri ilə sıx əməkdaşlıq edir. Son dövrlər isə onun əməkdaşlıq əhatəsi daha da genişlənməkdədir və yalnız İslam universitetləri ilə kifayətlənmir. Bu yaxınlarda Moskva Dövlət Linqvistika Universitetinin təklifi ilə Rusiyanın paytaxtında elm və təhsil sahəsində ikitərəfli əməkdaşlıq müqaviləsi bağlanacaqdır. Müqaviləyə əsasən, hər iki ali təhsil müəssisəsi arasında müəllim və tələbə mübadiləsi, elmi konfrans və seminarların birgə keçirilməsi, bu əsasda Azərbaycan ilə Rusiya arasında elmi-pedaqoji münasibətlərin inkişafına dəstək verilməsi nəzərdə tutulur. Bundan başqa, MDB məkanında fəaliyyət göstərən bir neçə nüfuzlu ali təhsil müəssisəsi ilə də razılaşmalar əldə olunmuşdur.

Əlbəttə ki, universitetin uğurlarının arxasında dünyada layiqli nüfuza malik olan Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin isti münasibəti və qayğısı durur. Məhz Şeyx həzrətlərinin və universitetin rektoru, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini hacı Sabir Həsənlinin səyi nəticəsində yüksək ixtisaslı kadrlardan ibarət müəllim heyətinin düzgün formalaşdırılması, kadr siyasəti Bakı İslam Universitetinin ali təhsil müəssisəsi kimi həm respublikada, həm də onun hüdudlarından kənarda fəaliyyət göstərən universitetlər arasında layiqli yer tutmasına səbəb olmuşdur.

Şeyxülislamın və Universitet rəhbərliyinin səyi nəticəsində formalaşan kadrlar artıq ölkədə öz sözünü demiş, tanınan alimlərdir. Universitetin müəllimləri respublikamızı hər il bir çox beynəlxalq və respublika əhəmiyyətli elmi tədbirlərdə öz məruzələri ilə layiqincə təmsil edir, nüfuzlu elmi nəşrlərdə çap olunur, monoqrafiyalar, kitablar dərc edirlər. Onların səsi müxtəlif dövlətlərin təhsil və elm ocaqlarının tribunalarından gəlir.

Bu yaxınlarda isə Bakı İslam Universiteti respublikamız üçün təhsil və elm sahəsində əhəmiyyətli daha bir uğura imza atmışdır. Universitet bu ildən Ukrayna təhsil və elm Nazirliyi tərəfindən əhəmiyyətli elmi tədbirlər sırasına daxil edilən V.Dal adına Şərqi Ukrayna Milli Universitetinin təşəbbüsü ilə ildə iki dəfə təşkil olunan beynəlxalq elmi konfransların təşkilatçısı qismində çıxış edəcək. Qeyd edək ki, Nazirliyin qərarına və əməkdaşlıq müqavilələrinə əsasən, beynəlxalq elmi konfransın təşkilatçıları Ukrayna, Rusiya, Polşa, Serbiya və Azərbaycandan olan ali təhsil müəssisələridir. Konfransların elmi istiqamətlərini din, dinşünaslıq, mədəniyyətşünaslıq, fəlsəfə, sosiologiya, politologiya, dövlət idarəçiliyi məsələləri əhatə edir. Konfransların elmi nəticələri toplu şəklində çap olunaraq 100-dən çox elmi kitabxanalara göndəriləcəkdir. Bu layihəyə Çexiya və Polşanın təhsil müəssisələri də qoşulmaq niyyətindədir. Azərbaycanı bu layihədə təmsil edən Bakı İslam Universitetinin həmtəsisçi və rektoru hacı Sabir Həsənli redaksiya heyətinin üzvü və dinşünaslıq istiqaməti üzrə ekspert seçilmişdir.

Qeyd edək ki, Azərbaycanın görkəmli din xadimi olan Sabir Həsənli Azərbaycanda ilahiyyat elmləri üzrə alimlik dərəcəsi almış ilk tədqiqatçı-alimdir. Onun respublikamız üçün layiqli gənc kadrların, din xadimlərinin yetişdirilməsində xüsusi zəhməti vardır. Təsadüfi deyil ki, S.Həsənli respublikamızda dini təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən "Şöhrət" ordeni ilə təltif olunmuşdur. O, din tarixi və İslam fəlsəfəsinə dair "İman və elm", "Adəmdən Xatəmə", "Haqqa doğru", "İslam mədəniyyətində elm", "Peyğəmbərlər tarixi" kitablarının və bir çox elmi məqalələrin müəllifidir. Həmçinin "Simurq" Beynəlxalq Mədəniyyət Assosiasiyasının vitse-prezidentidir. O, eyni zamanda Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu Himayəçilik Şurasının üzvüdür.

Azərbaycan təhsili və elmi üçün əhəmiyyətli uğura imza atan Bakı İslam Universitetini və ölkəmizi bu layihədə rektorla yanaşı, gənc alim Elvin Talışınski də təmsil edəcəkdir. Universitetin "İctimai fənlər" kafedrasının müdiri olan E.Talışınski konfransların Azərbaycan üzrə koordinatoru təyin olunmuşdur.

Təbii ki, bütün bunlar ali təhsil müəssisəsinin Azərbaycan təhsili və elminin inkişafı üçün göstərilən zəhmətinin nəticəsi və uğurudur. Bütün bunları nəzərə alaraq əminliklə vurğulamaq olar ki, Universitet ölkəmizin təhsil və elmi inkişafına bundan sonra da öz töhfəsini verəcəkdir.



# Mövludun tarixi

***Lüğətdə "dünyaya gəlinən yer və zaman" anlamına gələn "mövlud" kəlməsi İslam ədəbiyyatında "Məhəmməd peyğəmbərin (s) doğum günü, bu günün ildönümü münasibətilə keçirilən tədbirlər və bu mövzuda qələmə alınan əsərlər" mənasında işlədilir.***

Bir çox alimin fikrincə, Allah Rəsulu (s) Yəmən valisi Əbrəhənin Kəbəni uçurtmaq məqsədilə Məkkəyə hücum etdiyi və Fil hadisəsinin baş verdiyi il dünyaya gəlmişdir. Bu hadisənin hansı ildə baş verdiyinə dair ixtilaf mövcuddur. 569, 570-ci illər deyənlərlə yanaşı, 571-ci il olduğunu irəli də sürənlər var. Rəsulullahın (s) doğulduğu gün barədə də fikirayrılığı mövcuddur. Bəziləri onun rəbiüləvvəl ayının 12-də, bəziləri isə rəbiüləvvəlin 17-də dünyaya göz açdığını yazırlar. Doğum tarixi ilə bağlı bir neçə günlük fərqi aradan qaldırmaq məqsədilə 1989-cu ildən Türkiyə Diyanət Vəqfi Peyğəmbərin (s) doğum gününü "Doğum həftəsi" adı altında bir həftə - rəbiüləvvəl ayının 12-dən 17-dək bayram etməyi daha uyğun saymış və bu fikir digər müsəlman ölkələri tərəfindən də rəğbətlə qarşılanmışdır.

Məhəmməd peyğəmbər (s) həyatda ikən doğum gününü qeyd etdiyinə və ya bu günün keçirilməsi barədə hər hansı göstəriş verdiyinə dair heç bir məlumat yoxdur. Raşidi xəlifələr və ondan sonrakı Əməvilər və Abbasilər dövrlərində də mövlud ilə bağlı hansısa tədbirlərə rast gəlinmir.

İlk belə tədbir Misirdə Fatimilər dövləti qurulduqdan sonra Müizz Lidinillah (362-365/972-975) dövründə həyata keçirilmiş və Həzrət Peyğəmbərin (s) doğum günü rəsmi şəkildə qeyd olunmağa başlanılmışdır. Bu mərasim münasibətilə rəbiüləvvəl ayının 12-ci günü hazırlanan halva nimçələrdə rəsmi şəxslərə paylanar, Əzhar məscidində xətm oxunar, sonra xüsusi olaraq hazırlanan yerdə xəlifə, digər dövlət rəsmiləri və üləmanın iştirakı ilə mərasim icra edilərdi.

Bu tədbirlərin əsasən rəsmilərin qatıldığı dövlət mərasimi səviyyəsində keçirildiyi, geniş xalq kütləsinin mərasimə qoşulmadığı və şənlik ab-havasında olmadığı bildirilir. Belə ki, Fatimilər Allah Elçisinin (s) və Əhli-beytin doğum günlərini dini həssaslıqlarından daha çox, bir sıra siyasi məqsədlərlə qeyd edirdilər.

Fatimilərdən sonra Misirdə iqtidara keçən Əyyubilərin (1172-1462) hakimiyyəti dövründə bir çox bayram və mərasim ləğv olunduğundan, mövlud da diqqətdən kənar qalmış, camaat bu günü evində qeyd etmişdir. Ancaq Səlahəddin Əyyubinin qaynı olan və xeyirxahlığı ilə tanınan Ərbil atabəyi Müzəffərəddin Gökbörü (586-629/1190-1232) mövludu-nəbəvini yenidən rəsmi şəkildə qeyd etməyə başlamışdır.

Mənbələrdə keçdiyinə görə, həmin dövrdə məhərrəm ayından başlayaraq rəbiüləvvəl ayına qədər Bağdad, Mosul, Cəzirə, Sincar, Nusaybin kimi şəhərlərdən Ərbilə axın-axın fəqih, sufi, vaiz, qurra və şair gələr, mövluda hazırlıq bir neçə ay davam edərmiş. Fatimilər dövründən fərqli olaraq, bu dövrdə mərasimlər geniş xalq kütlələrinin iştirakı ilə böyük şənlik ab-havasında keçirilirmiş. Məmlüklər dövründə də Misirdə mövlud şənlikləri öz təntənəsini qorumuşdur. Rəbiüləvvəl ayının girməsilə başlayan mərasimlərə xəlifə, dörd məzhəbin baş qazısı, elm və təsəvvüf əhli, əmir və komandirlər, dövlət adamları, o cümlədən qonşu ölkələrdən müxtəlif nümayəndələr qatılırmış. Şimali Afrikada mövlud mərasimləri ilk dəfə qazı və mühəddis Əbul-Abbas Əhməd ibn Məhəmməd ibn Hüseyn əs-Səbti (ö.633/1236) tərəfindən xalqın xristian bayramlarını qeyd etmələrinin qarşısını almaq məqsədilə keçirilməyə başlanılmışdır. Osmanlı dövründə isə mövlud mərasimləri 1588-ci ildə Sultan III Murad tərəfindən geniş şəkildə qeyd edilmişdir. Lakin Süleyman Çələbinin 1409-cu ildə yazdığı məşhur mövludu mərasimlərin daha əvvəlki dövrlərdə də keçirildiyini göstərir. 1910-cu ildə mövludun Osmanlılarda rəsmi bayram elan edilməsinə baxmayaraq, Cümhuriyyət dövründə ləğv olunmuşdur.

Bu gün mövlud Səudiyyə Ərəbistanı istisna olmaqla, Şimali Afrikadan tutmuş İndoneziyaya qədər İslam ölkələrinin bəzilərində rəsmi, bəzilərində isə qeyri-rəsmi şəkildə qeyd edilir.

Mövludun fiqhi hökmünə gəldikdə isə bu mövzu üləma arasında həmişə mübahisələrə səbəb olmuşdur. İbnul-Hac əl-Əbdəri və digər bəzi Maliki alimlər mövludun Peyğəmbər (s), həmçinin səhabə və tabein dövründə keçirilmədiyini, bu səbəbdən mövludun bidət olduğunu bildirərək ona qarşı çıxmışlar. Onların arasında İbn Teymiyyə də olmuşdur. Digər tərəfdən, Əbu Şəmə əl-Məqdisi, Şəmsəddin əl-Cəzəri, İbn Həcər əl-Əsqəlani, İbn Həcər əl-Heytəmi, Şəmsəddin əs-Səhəvi, Cəlaləddin əs-Suyuti, Şihabuddin əl-Qastallani kimi alimlər Allahın aləmlərə rəhmət olaraq göndərdiyi Həzrət Peyğəmbərin (s) dünyaya gəlməsi səbəbilə sevinməyin, onun doğum günü münasibətlə fəqir və ehtiyacı olanlara yardım göstərməyin, ibadət etməyin, Allah Rəsuluna (s) duyulan sevginin ifadəsi olaraq şeirlər oxumağın, təmiz və gözəl paltarlar geyinərək şadyanalıq etməyin gözəl əməllər olduğunu söyləmiş, dolayısıyla mövludu qeyd etməyi bidəti-həsənə saymışlar.

*Hazırladı: GÜNEY*

# Böyük sınaq



**Allah-Təala insanları bəzi əmanət və mükəlləfiyyətlərə cavabdeh qılmış və sınamaq üçün imtahan meydanı olan bu dünyaya göndərmişdir.**

Qurani-Kərimdə insanların sınağa çəkilməsi daha çox "ibtila" kəlməsi ilə ifadə olunmuşdur. Ərəb mənşəli kəlmə olan "ibtila" "sınamaq", "təcrübə etmək", "imtahana çəkmək" anlamını bildirir, dini terminologiyada isə Allah-Təalanın insanları dünya həyatında imtahana çəkərək səbir edənləri axirətdə mükafatlandırması, qədərə üsyan edənləri isə cəzalandırması mənasında işlədilir.

Şübhəsiz ki, bəşər övladı dünyaya gəldiyi gündən ömrünün sonunadək imtahanla qarşı-qarşıyadır. İnsanın imtahana çəkilməsində şeytan mühüm rol oynayır. Belə ki, ilk insan Həzrət Adəmlə (ə) Həzrət Həvvanı (ə) da məhz o aldadaraq Cənnətdən çıxarmışdır. Onun əcdadı İblis isə Uca Rəbbimizin əmrinə itaət etməyərək Həzrət Adəmə (ə) səcdədən boyun qaçırdıqda Allahın dərgahından qovulmuşdur. Sonra isə Allahdan qiyamət gününədək möhlət alaraq, sadiq bəndələrdən başqa bütün insanları sınandığı anlarda haqq yolundan azdıracağına and içmişdir.

Bəşər övladı hər şeydən əvvəl qürur duyduğu zənginlik və dünya həyatının zinəti saydığı övladı ilə sınanar. Çünki sərvət və övlad gücün və nəslin davam etməsinin simvoludur, insanın həmin nemətlərlə sınanması ona ağır gələr. Lakin Uca Yaradan "Kəhf" surəsinin 46-cı ayəsində bu nemətlərin faniliyinə diqqət çəkərək buyurmuşdur: (Bəzi adamların fəxr etdiyi) mal-dövlət, oğul-uşaq (oğullar) bu dünyanın bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də (Allahın mərhəmətinə) ümid etibarilə daha xeyirlidir!"

Sonuncu Səmavi Kitabın digər ayələrində isə var-dövlət və övladın ancaq bir imtahan vasitəsi, böyük mükafatın isə Allah dərgahında olması vurğulanmışdır.

Dünya imtahan meydanı, ömür adlanan ilahi nemət isə imtahan zamanıdır. Uca Yaradan bu zaman ərzində insanları yaxşılıq və pisliklə də sınayar. Müqəddəs Kitabımızda bu barədə buyurulur: "Biz onları yer üzündə ümmətlərə böldük. İçərilərində həm əməlisaleh olanlar, həm də belə olmayanlar vardır. Biz onları yaxşılıq və pisliklə sınadıq ki, bəlkə (doğru yola) dönələr" (əl-Əraf, 168).

Uca Rəbbimiz insanları həm də çətinliklərə səbir etmək, xeyir və şər, qorxu və aclıq, sözlərində durmaları, şükür və nankorluq, hiylələri və qəlblərindəki təqva ilə, eləcə də əmr və qadağaları ilə imtahana çəkər.

Bəşər övladının dünya həyatında qarşılaşacağı ən böyük imtahan isə onun Uca Yaradana necə itaət etməsidir. Bunun üçün mələklər və cinlər yaradılmış, peyğəmbərlər göndərilmişdir. Önlərinə halal və haramlar qoyulmuş, seçim özlərinə buraxılmışdır. Qarşılarına çıxanlar arasından Allah rizasını seçənlər Onun dərgahında ağıllı və istəkli bəndələrdir. Haram və şeytanın yolunu seçənlər isə Allahın sevmədiyi və ziyana uğramış şəxslərdir. Bəzən halal, bəzən də haramı seçənlər isə tövbə edib, pis işlərdən çəkinmədikcə nicat tapmazlar.

Peyğəmbərlər də daxil olmaqla bütün mükəlləf insanların bu imtahanda niyyətinə və əməllərinə baxılar. Lehinə və ya əleyhinə olan dəlillər toplanar. Mömin, münafiq və kafirlər bir-birindən ayrılar, mələklər tərəfindən yazılmış əməlləri ortalığa qoyular və heç kimə zərrə qədər də olsa, haqsızlıq edilməz.

Müqəddəs Kitabımızdan belə başa düşülür ki, Allah-Təalanın ən çox və ən çətin imtahanlarla sınadığı kəslər məhz Özünün ən çox sevdiyi bəndələrdir. Belə ki, Uca Yaradan peyğəmbərlərini də ağır müsibətlərlə imtahan etmiş, onları insanlara səbrin siması kimi tanıtmışdır. Məsələn, Rəbbimiz Həzrət Əyyubun (ə) əlindən bütün mallarını və övladlarını almış, özünə də illərlə sürən xəstəlik vermişdi. Bütün bu sıxıntıları səbirlə qarşılayan Həzrət Əyyub (ə) Allah-Təalanın onunla öyündüyü peyğəmbəri olmuşdur. Sonunda Uca Yaradan Həzrət Əyyubun (ə) xəstəliyinə şəfa vermiş və itirdiklərinin on mislini ona əta etmişdir.

Allah-Təala Həzrət Məhəmmədi də (s) qəlbindəki ilahi eşqi və imanı aşkara çıxarmaq məqsədilə acı və ağır imtahanlarla sınağa çəkmişdir. Belə ki, o, günlərlə aclıq çəkməsinə, uşaqlar tərəfindən daş-qalaq edilməsinə, bəzi qohum-əqrəbaları tərəfindən təcrid və təhqir olunmasına baxmayaraq, yaxınlarını itirməsini səbirlə qarşılamış, ilahi missiyanı layiqincə yerinə yetirərək "həbibullah" (Allahın sevimlisi) məqamına ucalmışdır.

İxlaslı insanlar axirətdə hesaba çəkiləcəyinə inanaraq həyatı boyu yaxşı işlər görməyə çalışar. Səmimi qəlbdən iman etməyənlər isə digərlərinin haqqına hörmətlə yanaşmaz, halal-haram demədən kisəsini dolduraraq ömrünü pis işlərlə başa vurarlar. Nəhayət, bir gün ölüm gələr, axirətin qapıları açılar. İxlaslı insanlar Cənnəti qazanar, ilahi buyruqlara etinasız yanaşanlar isə Cəhənnəm çuxuruna atılar.

Buna görə də, ölüm döşəyinə girmədən öncə ilahi rizanı düşünməli, pis əməllərdən çəkinərək, ibadətlərə diqqətlə yanaşmalı və mahiyyətini dərk etməli, Uca Rəbbimizin hər imtahanının imanımızın dərəcəsinə uyğun olduğunu anlamalıyıq...

*Vüqar HÜMMƏTOV, ilahiyyatçı*



# Özünüzlə münasibətiniz necədir?

**Ağlınıza belə bir sual gələ bilər: "Özünə inanmaq nə deməkdir?"**

Bilginizə, bacarıqlarınıza, doğru qərar qəbul etmək qabiliyyətinizə, çətinliklər qarşısında müqavimət göstərmək gücünüzə, məsuliyyət altına girmək xüsusiyyətinizə inanmaq sizə yetərli biri olduğunuz duyğusunu aşılaya bilər. Bu yetərlilik duyğusunun adı özünəinamdır.

Ailələrin, təhsil sisteminin və iş həyatının həddən artıq yarışma prinsipinə əsaslanması fərdlərdə yetərlilik duyğusunu inkişaf etdirməyi çətinləşdirir. Bu cür qeyri-sağlam yarışdırıcı sistem özünüzü inkişaf etdirmək, müvəffəqiyyət əldə etmək imkanını əlinizdən alır. Sizə özünüzü marafonda kimi hiss etdirərək qulağınıza daim pıçıldayırlar: "Dayanma! Dayansan, uduzacaqsan! Yarış!"

Bəs insanın özünə sevgisi nədir?

Çox adamın beynində özünə qarşı ağır ittihamlar irəli sürən prokuror və vicdanın səsinə qulaqlarını yuman mərhəmətsiz hakim var. Onların vəzifələrini icra etdikləri bu daxili məhkəmədə daim təqsirləndirilən və ittiham olunan insan özünü olduğu kimi qəbul etməyi və sevməyi öyrənə bilməz.

Hər şeyin yaxşı-pis, doğru-yanlış kimi sinifləndirildiyi cəmiyyətlərdə bu daxili məhkəmənin gücü olduqca böyükdür. Belə cəmiyyətlərdə fərd sahib olduğu fərqli düşüncə və duyğulara görə özünü ittiham edir, başqalarının ittihamlarından çəkinir və özünə yadlaşır. Hətta özünə nifrət edir. Halbuki özünü olduğu kimi qəbul edə bilsə, hiss edəcəyi duyğu özünə sevgi olacaqdır. Ancaq bu duyğunu özündənrazılıq, lovğalıq, eqoistlik və məsuliyyətsizliklə səhv salmamaq lazımdır. İnsan özünə sevgi ilə yanaşacağı təqdirdə, yanlış və yetərsiz gördüyü şeyləri amansızca ittiham etmək yerinə, şəfqətlə onları düzəldəcəkdir.

Özünəsevgi azadlığın övladıdır; fərd olmağa cəsarətləndirən, fərqlilikləri ittiham etməyən mühitdə boy atar.

Bu iki duyğudan başqa, bir də özünədəyər hissi var. Həmin duyğu insanın bu dünyaya gələn bir fərd olduğu üçün mütləq varlığı səbəbilə özünü dəyərli hiss edə bilməsidir.

İnsana dəyər verilən cəmiyyətlərdə özünədəyər hissinə sahib fərdlərin yetişməsi daha asan olur. Həmin insanlar özlərini başqalarının davranışlarına görə dəyərli və ya dəyərsiz hiss etmirlər. Onlar öz dəyərlərinin fərqində olurlar. Və əlbəttə özünə dəyər verən fərdlər başqalarına da dəyər verməyi bacarırlar.

Özünəinam, özünəsevgi və özünədəyər əslində bir-biri ilə sıx əlaqəsi olan, bir-birindən bəslənən üç məfhumdur. Birinin natamamlığı, ya da yoxluğu mənlik bütünlüyünü pozar. Sağlam bir mənliyə sahib olmaq üçün bacarıqlarınızdan agah olmalı, özünüzü olduğunuz kimi qəbul etməli, ittiham etmədən anlamağa çalışıb, özünüzü inkişaf etdirməli, özünüzə dəyər verməlisiniz.

Bu xüsusiyyətləri qazana bilmək üçün yaşadığımız cəmiyyətin çox yaxşı mühit təqdim etdiyini söyləməyə çətinlik çəkirik. Mühakimələrin, cəhalətin, təzyiqin, ağır sosial-iqtisadi bərabərsizliyin, insan haqlarındakı natamamlığın mövcud olduğu cəmiyyətlərdə xəstə mənliyə sahib insanların sayı, təəssüf ki, sürətlə artır. Qəzəb, şiddət, kobudluq, təcavüzkarlıq, səmimiyyətsizlik, məsuliyyətsizlik, özünü gözə soxma xəstəliyi hər yerdə qarşımıza çıxır. Özünəsevgi bəzən özünəvurğunluq, eqoizm, haqq edilməmiş üstünlük duyğusu və təkəbbürlə, həqiqi yetərlilik duyğusu olan özünəhörmət isə haqsız güc və zorbalıqla qarışdırılır. Özüylə sağlam münasibət quran, sevgi və hörmət dilində danışan, məsuliyyət və ədalət hissinə sahib səmimi insanlara get-gedə daha az rast gəlirik.

Depressiya, panik atak kimi psixi narahatlıqlar dərmanlar vasitəsilə müalicə edilməyə çalışılır, halbuki bu ruhi fırtınanın arxasında ÖZ ilə sağlam münasibət qura bilməməyin gizləndiyi görülmür.

Ancaq doğru həll yollarını tapmaq üçün artıq gözləməyə vaxtımız yoxdur.

Həm fərdi, həm də ictimai problemlərimizin həll olunması üçün ruhi və fərdi inkişafımızı ön planda tutmalıyıq. Hamımızın özünəinam, özünəsevgi və özünədəyər hisslərinə yiyələnməyə ehtiyacı var! Özümüzü öyrənməyi təcili məqsədimizə çevirməliyik!

Yalnız buna nail olduğumuz zaman sağlam cəmiyyətlər, mədəni şəhərlər qura, həyatımızı qara quyulardan çıxarıb, göy üzündə parlaq ulduzlara çevirə biləcəyik!

***Həkim Şafak Nakajima***

***Tərcümə etdi: Güney NAMAZOVA***

---

## Ermənistan gürcü kilsələrini özününküləşdirmək istəyir



Ermənilər indi də Gürcüstana qarşı kilsə iddiası irəli sürürlər.

"Vestnik Kavkaza" portalı bununla bağlı maraqlı məlumat yayıb. Məlumatda deyilir ki, Ermənistan Gürcüstandakı 450 kilsənin ermənilərə verilməsi ilə bağlı məhkəməyə müraciət etmək niyyətindədir. "İnterfaks" İnformasiya Agentliyi isə belə bir məlumat yayıb ki, Ermənistan Gürcüstandakı kilsələrin ermənilərə verilməsi ilə əlaqədar UNESCO-ya yazılı müraciət edib.

Gürcüstan Katalikos Patriarxiyası, eləcə də digər qurumlar bu iddianı əsassız adlandırdıqdan sonra erməni Apostol Kilsəsi deyilənləri təkzib edib. Lakin mətbuat yazır ki, əgər belə bir iddia olmasa idi, patriarxiya və digər əlaqədar təşkilatlar müxtəlif bəyanatlar yaymazdı. Necə deyərlər "od olmayan yerdən tüstü çıxmaz"dı.

"Vestnik Kavkaza" portalı yazır ki, ermənilərin bu tələbini bütün Gürcüstanın Katalikos–Patriarxının katibi Mikael Botkoveli Ata da şərh edib. Botkoveli deyib: "Əvvəlcə biz inanmadıq ki, erməni Apostol Kilsəsi belə bir absurd tələblə Gürcüstanın Baş nazirinə yazılı müraciət etsin. Sonradan bunun doğru olduğunu bildik. Bizim üçün maraqlı və qəribədir ki, onlar bunu hansı əsasla edirlər? Görəsən Ermənistanın özündə 450 kilsə varmı?"

Mikael Ata erməni Apostol Kilsəsinin bu addımını Gürcüstan Pravoslov Kilsəsi ilə münasibətlərin kəskinləşməsinə cəhd kimi qiymətləndirib və belə halların yolverilməz olduğunu deyib.

## Səudiyyə Ərəbistanı 1000 kilometrlik sədd çəkir – İŞİD-dən qorunmaq üçün



Səudiyyə Ərəbistanı "İslam dövləti"nin mücahidlərindən qorunmaq məqsədilə İraq sərhədi boyu 1000 km-ə yaxın uzunluğu olan divar hörür.

Şahidlərin sözlərinə görə, sərhədlərin müdafiəsi dörd mərhələdə həyata keçiriləcək. Buna divardan əlavə, mühafizə qülləsi, radarlar və s. ləvazimatlar daxildir.

Xatırladaq ki, bir müddət əvvəl İraqın Ənbar şəhəri yaxınlığında Səudiyyə sərhədçiləri ilə mücahidlər arasında baş vermiş toqquşmada 3 səudiyyəli və 4 mücahid həyatını itirib. Sərhədçilər döyüşçülərdən birini ələ keçirməyə nail olsalar da, o, belindəki "şəhid kəməri"ni işə salıb. Nəticədə həm özü, həm də sərhədçilər ölüblər.

## Gürcüstanın yeni daxili işlər nazirinin adı bəlli oldu

Gürcüstanın yeni daxili işlər nazirinin adı məlum olub. Baş nazir İrakli Qaribaşvili yanvarın 26-da baş tutan xüsusi brifinqdə yeni nazir Vaxtanq Qomelaurini təqdim edib.

O, bundan öncə daxili işlər naziri Aleksandr Çikaidzenin birinci müavini vəzifəsində çalışıb. Çikaidze yanvarın 23-də cinayət törədən şəxslərə himayədarlıq etməsi ilə bağlı səslənən ittihamlara etiraz olaraq istefa verib.

Cəmiyyət və Din
№ 01 (282) / YANVAR 2015-ci il

# Alimlər mumiya maskasında İncilin qədim fraqmentini tapıblar



Kanadadakı Akadiya ilahiyyat kollecinin alimləri mumiyanın maskasını tədqiq edərkən belə nəticəyə gəliblər ki, onun təşkil olunduğu papirus vərəqləri Markın İncilindən fraqmentləri ehtiva edirlər. Həmin fraqmentin I əsrdə yazıldığı güman olunur.

"Vokruq Sveta"nın verdiyi məlumata görə, alimlərin fərziyyələri öz təsdiqini tapsa, onda onların əlində İncilin bu günə qədər gəlib çıxmış ən qədim fraqmenti olacaq. Hazırda aşkar edilmiş ən qədim fraqment isə II əsrdə yazılmışdır.

Fraqmentin mətninin cari ildə nəşr edilməsi nəzərdə tutulub.

Mətn mumiyanın maskasının hazırlanmasında istifadə olunmuş papirus vərəqində yazılıb.

## Müsəlmanlar üçün mobil telefon istifadəyə verilib




"BQ İstanbul" adlı telefon aparatlarının birinci partiyası artıq satılıb. Cihazın yaddaşına iki dildə Quran yazılıb: ərəb və rus dilindəki ən məşhur dörd tərcümə.

İstifadəçilərin rəylərinə əsasən, telefonun rahat menyusu surələri tez-tez dəyişməyə, oxumaq üçün lazım olan ayəni seçməyə imkan verir. Həmçinin telefonda "namaz üçün zəngli saat" əlavəsi quraşdırılıb. Bu əlavə telefon sahibinin olduğu ölkənin və şəhərin məlumatlarını götürərək həmin yer üçün namazın vaxtlarını təyin edir və gündə beş dəfə səsli siqnalla xatırladır. Telefon İslamın ənənəvi rənglərində təqdm olunub: qara, al qırmızı və yaşıl rəng.

Ancaq yeniliyi tənqid edənlər də var. "Biz telefonla hara gəldi gedirik. Nəzərə alsaq ki, onun içində Quran var, cihaza xüsusi hörmət göstərilməlidir. Dəstəmazsız ona əl vurmaq, ayaq yoluna girmək olmaz", - deyə telefona qarşı çıxanlar öz iradlarını bildiriblər.

## Papanın messasında rekord sayda iştirakçı



Roma Papası I Fransisk yanvarın 15-də Asiyaya səfəri çərçivəsində Filippinin paytaxtı Manilaya gəlib. Onun səfərinin ikinci hissəsinin əsas mövzusu "Mərhəmət və şəfqət"dir. Bu barədə Vatikan radiosu məlumat verib. Yerli KİV-in verdiyi xəbərə görə, Papanın paytaxtda baş tutan bazar günü messasına 6 milyon adam qatılıb. Messanı parkda keçirmək qərara alınıb. İnsanlar yağışlı havaya baxmayaraq, bir neçə saat əvvəldən pontifiki dinləmək üçün toplaşıblar. "Biz altı milyon adam saymışıq", - deyə şəhər hakimiyyəti məlumat verib. Bu isə rekord göstəricidir. Tarixdə ilk dəfədir ki, Papanı dinləmək üçün bu qədər insan bir yerə toplaşır.

# Qızlar, yoxsa oğlanlar yaxşı oxuyur?

Dünyanın əksər ölkəsində orta məktəbdə qızlar oğlanlardan daha yaxşı oxuyur. Rusiya mətbuatının verdiyi məlumata görə, bu qənaətə amerikalı alimlər gəliblər.

Bu məqsədlə onlar 74 ölkədən 500 min nəfər 15 yaşlı məktəblinin müvəffəqiyyət göstəricilərini toplayaraq araşdırma aparıblar.

Məlum olub ki, araşdırma aparılan ölkələrin 70 faizində qızlar oğlanlardan daha yaxşı oxuyur. Lakin üç region istisna təşkil edib - Kolumbiya, Kosta Rika və Hindistanın Himaçal Prades ştatı.

### Yadigar söz

*Benedikt Spinoza,*
*Niderland filosofu*

**İnsan ehtirasları məğlub edərək Tanrıya yaxınlaşar.**

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh namazı | Gün çıxır | Zöhr namazı | Əsr namazı | Axşam namazı | İşa |
|---|---|---|---|---|---|---|
| 01 Fevral | 06:39 | 07:51 | 12:58 | 15:59 | 18:12 | 19:30 |
| 02 Fevral | 06:38 | 07:50 | 12:58 | 16:00 | 18:13 | 19:32 |
| 03 Fevral | 06:37 | 07:49 | 12:58 | 16:02 | 18:14 | 19:33 |
| 04 Fevral | 06:36 | 07:48 | 12:58 | 16:03 | 18:15 | 19:34 |
| 05 Fevral | 06:36 | 07:47 | 12:59 | 16:04 | 18:17 | 19:35 |
| 06 Fevral | 06:35 | 07:46 | 12:59 | 16:05 | 18:18 | 19:36 |
| 07 Fevral | 06:34 | 07:45 | 12:59 | 16:06 | 18:19 | 19:37 |
| 08 Fevral | 06:33 | 07:44 | 12:59 | 16:07 | 18:20 | 19:38 |
| 09 Fevral | 06:32 | 07:43 | 12:59 | 16:08 | 18:21 | 19:39 |
| 10 Fevral | 06:31 | 07:42 | 12:59 | 16:09 | 18:23 | 19:40 |
| 11 Fevral | 06:30 | 07:41 | 12:59 | 16:10 | 18:24 | 19:41 |
| 12 Fevral | 06:29 | 07:39 | 12:59 | 16:11 | 18:25 | 19:42 |
| 13 Fevral | 06:28 | 07:38 | 12:59 | 16:12 | 18:26 | 19:43 |
| 14 Fevral | 06:26 | 07:37 | 12:59 | 16:14 | 18:27 | 19:44 |
| 15 Fevral | 06:25 | 07:36 | 12:59 | 16:15 | 18:28 | 19:46 |
| 16 Fevral | 06:24 | 07:35 | 12:59 | 16:16 | 18:30 | 19:47 |
| 17 Fevral | 06:23 | 07:33 | 12:59 | 16:17 | 18:31 | 19:48 |
| 18 Fevral | 06:22 | 07:32 | 12:59 | 16:18 | 18:32 | 19:49 |
| 19 Fevral | 06:20 | 07:31 | 12:59 | 16:19 | 18:33 | 19:50 |
| 20 Fevral | 06:19 | 07:29 | 12:59 | 16:20 | 18:34 | 19:51 |
| 21 Fevral | 06:18 | 07:28 | 12:58 | 16:21 | 18:35 | 19:52 |
| 22 Fevral | 06:17 | 07:26 | 12:58 | 16:22 | 18:37 | 19:53 |
| 23 Fevral | 06:15 | 07:25 | 12:58 | 16:23 | 18:38 | 19:54 |
| 24 Fevral | 06:14 | 07:24 | 12:58 | 16:24 | 18:39 | 19:55 |
| 25 Fevral | 06:13 | 07:22 | 12:58 | 16:25 | 18:40 | 19:56 |
| 26 Fevral | 06:11 | 07:21 | 12:58 | 16:25 | 18:41 | 19:57 |
| 27 Fevral | 06:10 | 07:19 | 12:58 | 16:26 | 18:42 | 19:59 |
| 28 Fevral | 06:08 | 07:18 | 12:57 | 16:27 | 18:43 | 20:00 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

### NO COMMENT

Şamaxı rayonunun **Adnalı kənd məscidi dini icmasının 01 mart 2007-ci il tarixli 383 N-li Şəhadətnaməninin** və digər təsis sənədlərinin itirildiyi üçün etibarsız hesab edilməsi barədə **20.01.2015-ci il tarixində** qərar qəbul etmişdir. *(Protokol N 2)*

Şamaxı rayonunun **Adnalı kənd məscidi dini icmasının (01.03. 2007-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 383 N-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır)** təsisçilərinin **27.01.2015-ci il** tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin **dini icmanın ləğv edilməsi barədə qərar** qəbul edilmişdir.

### NO COMMENT




Baş redaktor Sadiq Mirzəyev

**Redaksiya şurası:** Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
Qaynar xətt: qaynar_xett@scwra.gov.az
E-mail: cemiyyet-din@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:** Bakı (Bakı): (012) 437 31 14; Sumqayıt-Abşeron (Sumqayıt): (0186) 5 85 98; Şimal (Quba): (02333) 5 22 70; Şimal-Qərb (Zaqatala) (02422) 5 32 23; Şirvan (Ağdaş): (02023) 5 50 97; Qərb (Gəncə): (02225) 6 91 14; Qarabağ (Ağcabədi): (02127) 5 52 00; Cənub (Lənkəran): (02525) 5 39 84; Aran (Şirvan) (050) 588 07 82

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Həftəlik qəzet
Tiraj: 3067
Sifariş: 3245

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894